

# QANUNÇULUQ

**HÜQUQ JURNALI**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı**




**№ 01 - yanvar 2022**



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**N 01 - yanvar 2022**

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Prezident İlham Əliyev Gəncə şəhərində səfərdə olub ....4
Prezident İlham Əliyevin Ukraynaya işgüzar səfəri ....6
Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər ....8
Şəhidlər xiyabanını ümumxalq ziyarəti....10

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Şəhidlərimizin xatirəsi ədliyyə orqanlarında yad edilib ....11
Korrupsiyaya qarşı qlobal mübarizədə Azərbaycanın töhfələri yüksək qiymətləndirilir ....12
Bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması üzrə tədbirlər davam etdirilir....13
Penitensiar xidmətdə əməliyyat müşavirəsi keçirilib ....14
Vətəndaşlara daha keyfiyyətli ədliyyə xidmətlərinin göstərilməsi diqqət mərkəzindədir ....16
Məhkəmə ekspertizası fəaliyyəti ədalət mühakiməsinin səmərəliliyinə xidmət edir ....17
Prezident İlham Əliyevin imzaladığı yeni qanunlar hərtərəfli inkişafa və əhalinin rifahına xidmət edir ....19
Ədliyyə Akademiyasının fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər görülür ....21
Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində ilin yekunları müzakirə olunub ....22
Ədliyyə Nazirliyinin vahid Çağrı Mərkəzinin təqdimatı olub....24
Ədliyyə Nazirliyi səmərəli beynəlxalq əməkdaşlıq həyata keçirir ....25
Notariat fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər növbəti müsabiqəyə dəvət edilirlər....26
Hakimlərin Seçki Komitəsinin məlumatları ....27

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 20 dekabr tarixli 433-VIQD nömrəli Qanunu ....28
"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 20 dekabr tarixli 436-VIQD nömrəli Qanunu ....29
“Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 464-VIQD nömrəli Qanunu ....30
“Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 465-VIQD nömrəli Qanunu ....33
“Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2006-cı il 18 aprel tarixli 391 nömrəli, "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2007-ci il 26 fevral tarixli 532 nömrəli və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 yanvar tarixli 1582 nömrəli Fərmanı....33
“Azərbaycan Respublikası Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2022-ci il 12 yanvar tarixli Qərarı ....34
“Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 100, 101-ci maddələri və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 53.1.5-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2022-ci il 17 yanvar tarixli Qərarı....42

# Prezident İlham Əliyev Gəncə şəhərində səfərdə olub





Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərində səfərdə olub.**





2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzinin açılışı

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Ölkə Prezidenti Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışında iştirak edib.

Gəncə Dövlət Dram Teatrının 2014-cü ildə təməli qoyulan yeni binasında 478 yerlik böyük tamaşaçı zalı, 22 tamaşaçı yerlik lojalar və 120 yerlik kiçik tamaşaçı zalı var. Yeddimərtəbəli binada, həmçinin iki zaldan, 135 eksponat və rəsm əsərlərindən ibarət Gəncə Teatr Muzeyi, zəngin kitabxana, xoreoqrafiya zalı, qrim otaqları, mehmanxana, kafe və digər zəruri infrastruktur yaradılıb.

Eyni zamanda, 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzinin açılışını edən dövlətimizin başçısına məlumat verilib ki, Mərkəzdə vətəndaşlara müxtəlif dövlət qurumları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 320-dən çox xidmət göstəriləcək. Əməkdaşların sayı 208, könüllülərin sayı 85 nəfər nəzərdə tutulur. "ASAN xidmət" Mərkəzinin işçilərinin sayı 40 nəfərdir ki, onlar da əsasən şəhid ailəsi üzvləri, qazilər və ASAN könüllülərindən təşkil olunub.

Ölkə üzrə sayca iyirmi ikinci olan Mərkəz Gəncə şəhəri, Şəmkir, Gədəbəy, Göygöl, Goranboy, Samux, Naftalan, Kəlbəcər və Xocalı rayonlarını əhatə edir. Bu bölgədə qeydiyyatda olan ümumilikdə 1 milyona yaxın insan olsa da, Mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzini işə salıb. Dövlət başçısına həmçinin, növbəti innovasiyalar təqdim olunub.

Səfər zamanı ölkə rəhbəri Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə də tanış olub. İkimərtəbəli Gəncə İdman Sarayında böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq turnirlərin keçirilməsi üçün məkan, şahmat, güləş, boks və idmanın digər növləri üzrə məktəblər fəaliyyət göstərəcək.

Həmin gün Gəncədə "Azər-



Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə tanışlıq



"Azərbaycan Dəmir Yolları" QSC-nin lokomotiv deposunun istismara verilməsi



Gəncə Memorial Kompleksinin təməlinin qoyulması

baycan Dəmir Yolları" QSC-nin lokomotiv deposu istismara verilib.

Tədbirdə iştirak edən dövlətimizin başçısı deponu işə salıb. Bildirilib ki, əsas təmir zonasında eyni vaxtda 6 lokomotivə xidmət etməyə imkan verən ikimərtəbəli platforma mövcuddur. Yeni depo sifariş edilmiş bütün dəyişən cərəyanlı lokomotivlərə fasiləsiz olaraq texniki xidmət göstərmək qabiliyyətindədir.

Gəncə lokomotiv deposu ABŞ, Almaniya, İngiltərə, Hollandiya, İtaliya, Türkiyə, Koreya Respublikası, Çin, Rusiya və bir sıra digər ölkələrin istehsalı olan müasir avadanlıq və cihazlarla təchiz olunub. Həmçinin depo ərazisində 350 ədəd günəş paneli quraşdırılıb ki, bu da enerjiyə olan tələbatın bir hissəsini qarşılamaq imkanı yaradır.

Yeni depoda 75 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Gəncə lokomotiv deposunun istismarı enerji resurslarına qənaətə, xərclərin azalmasına, təmir və texniki xidmətin optimallaşdırılmasına, istismarın etibarlılığının artırılmasına və fasiləsiz daşımaların təmin olunmasına imkan yaradacaq.

Prezident İlham Əliyev yanvarın 30-da Gəncə Memorial Kompleksinin təməlini qoyub, kompleksin yaradılacağı ərazi ilə tanış olub. Məlumat verilib ki, Vətən müharibəsi dövründə Gəncə şəhəri oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı "Toçka-U", "Smerç", "SCUD" və digər raket qurğularından endirilən zərbələrə məruz qalıb. Nəticədə 6-sı uşaq olmaqla, 26 mülki şəxs həlak olub, 31-i uşaq olmaqla, 142 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumu nəticəsində həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstəsi qoyub.

Münaqişə bölgəsindən kilometrlərlə kənar ərazilərin qadağan olunmuş kaset bombalarla hədəfə alınması nə beynəlxalq hüquqa, o cümlədən Ermənistanın 1993-cü ildə ratifikasiya etdiyi Cenevrə konvensiyalarına və onların əlavə protokollarına, nə müharibənin əxlaq kodeksinə, nə də ümumiyyətlə heç bir mənəvi müstəviyə uyğun deyildi. Bu ifadənin dəqiq definisiyası "alçaqcasına hücum"dur. Azərbaycan isə müharibənin ilk günündən heç bir halda mülki əhaliyə atəş açmır, yalnız legitim hərbi hədəfləri zərərsizləşdirir, qisasımızı döyüş meydanında alırdı.

Ermənistanın raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsi isə bu ərazini ziyarətə gələn hər kəs tərəfindən ehtiramla anılır.

Səfər çərçivəsində Prezident İlham Əliyev Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə verib.

# Prezident İlham Əliyevin Ukraynaya işgüzar səfəri

**Yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenskinin dəvəti ilə Ukraynada işgüzar səfərdə olub.**

Səfər zamanı dövlət başçılarının təkbətək görüşü olub. Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb, birgə foto çəkdirilib.

Görüşdə iki ölkə arasında əlaqələrin müxtəlif sahələrdə inkişafı ilə bağlı məsələlər müzakirə edilib.

Sonra geniş tərkibdə davam edən görüşdə Ukrayna Prezidenti Volodimir Zelenski qlobal pandemiya şəraitində Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynaya səfərindən məmnunluğunu bildirib, ölkələrimiz üçün böyük təhdid olan COVID-lə mübarizə aparılmasının vacibliyini qeyd edib, Ukraynanı, onun suverenlini, dövlətlərimiz arasında mövcud olan birgə layihələri dəstəklədiyinə görə dövlətimizin başçısına təşəkkür edib. V.Zelenski səfər zamanı enerji xarakterli, infrastruktur, nəqliyyat məsələləri, hərbi-texniki əməkdaşlıq və sair məsələlər üzrə müzakirələr aparıldığını vurğulayıb.

Prezident İlham Əliyev Ukrayna və Azərbaycanın uzun illər ərzində bir-biri ilə uğurla əməkdaşlıq etdiyini, beynəlxalq platformalarda da bir-birinin maraqlarını müdafiə etdiyini vurğulayıb. Qeyd edib ki, iki ölkənin bir-birinin ərazi bütövlüyünün qarşılıqlı surətdə dəstəklənməsi,



Azərbaycan və Ukrayna prezidentlərinin təkbətək görüşü



Geniş tərkibdə görüş

müdafiə edilməsi əməkdaşlığımızın səviyyəsindən xəbər verir.

Azərbaycan Prezidenti, həmçinin iqtisadi sahədə canlanma olduğunu, ticarət dövriyyəmizin qalxmasında müsbət meyillərin mövcudluğunu bildirib, energetika sektorunda əməkdaşlıqdan bəhs edib, nəqliyyat, kənd təsərrüfatı, turizm sektorlarının da böyük perspektivlərinin olduğunu diqqətə çatdırıb.

Hökumətlərarası komissiyanın fəaliyyətini müsbət qiymətləndirirən dövlətimizin başçısı müxtəlif dövlət qurumları arasındakı təmasların da son vaxtlar daha intensiv xarakter aldığını söyləyib. Bildirib ki, Ukrayna ilə Azərbaycan arasında uzun illər qarşılıqlı surətdə faydalı əlaqələr davam edir. Əminəm ki, bu səfərdən sonra biz əməkdaşlığımızın daha da dərinləşməsini, bütün sahələrdə dərinləşməsini görəcəyik.

Görüşdə iqtisadi sahədə, o cümlədən kənd təsərrüfatı, nəqliyyat, enerji, qida təhlükəsizliyi sahələrində əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Volodimir Zelenskinin iştirakı ilə Azərbaycan-Ukrayna sənədləri-

nin imzalanması mərasimi olub.

Dövlət başçıları Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsini imzalayıblar.

Həmçinin, Ukrayna Nazirlər Kabineti ilə Azərbaycan Respublikası Hökuməti arasında "Qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Saziş, Ukraynanın İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında "İkitərəfli ticarətdə təcili əməkdaşlıq haqqında" Anlaşma Memorandumu, Ukrayna Aqrar Siyasət və Ərzaq Nazirliyi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında "Aqrar sahədə əməkdaşlıq haqqında" Anlaşma Memorandumu, "Neft-qaz Ukrainı" Milli Səhmdar Şirkəti" ilə Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR arasında "Energetika sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumu, Ukraynanın Geodeziya, Kartoqrafiya və Kadastr üzrə Dövlət Xidməti ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi arasında "Torpaq münasibətləri, dövlət torpaqlarının idarə edilməsi və dövlət torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumu imzalanıb.

İmzalanma mərasimindən sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə çıxış edən dövlətimizin başçısı Ukrayna-Azərbaycan əlaqələrində çox ciddi irəliləyişlərin olduğunu, yaxın gələcəkdə diplomatik münasibətlərimizin 30 illiyinin qeyd ediləcəyini bildirib, müstəqillik dövründə Ukrayna və Azərbaycanın hər zaman bir-birini - müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini dəstəklədiyini və bu



Azərbaycan-Ukrayna sənədlərinin imzalanmasi



Azərbaycan və Ukrayna prezidentlərinin mətbuata birgə bəyanatları

dəstəyin bu gün birgə imzalanmış Birgə Bəyannamədə də öz əksini tapdığını vurğulayıb.

Prezident İlham Əliyev xalqlarımızı dostuq əlaqələri birləşdirdiyini söyləyib, ənənəvi əməkdaşlıq sahəsi olan energetika sahəsində yeni planların olduğunu qeyd edib, ticarət dövriyyəsinə, ərzaq təhlükəsizliyinə toxunub. Bildirib ki, əməkdaşlığımızın təməlində dostluq əlaqələri dayanır və bu səfər həm bu ili ikitərəfli müstəvidə yaxşı nəticələrlə başa vurmağa xidmət göstərəcək, həm də gələcək illər üçün də gözəl zəmin olacaq.

Ukrayna dövlətinin başçısı bəyanatında Prezident İlham Əliyevin səfərinin ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf etdiyini, səfər zamanı siyasət, iqtisadiyyat və təhlükəsizlik sahəsində fikir mübadiləsi aparıldığını, Ukrayna və Azərbaycan prezidentlərinin Bəyanatının, kənd təsərrüfatı, nəqliyyat, energetika, ticarət sahələrinə aid olan ikitərəfli 6 sənəd imzalandığını söyləyib.

Bildirib ki, bir sıra birgə genişmiqyaslı layihələr əsasında sərmayələrin qoyulması, Azərbaycanda bərpa işlərinin aparılmasında iştirak etmək fikrindədir. Ukraynanın şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə iştirak edə bilər.

Səfər zamanı Kiyevdə Ukrayna Prezidenti Volodimir Zelenskinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə lanç verilib. Yanvarın 14-də dövlətimizin başçısının Ukraynaya işgüzar səfəri başa çatıb.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər






**Qanlı 20 Yanvar faciəsindən 32 il ötür. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 32-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.**

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ölkəmizin azadlığı uğrunda həlak olanların əziz xatirəsini ehtiramla yad ediblər.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoyub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

***

1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin həm faciəli, kədərli səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Ulu öndər Heydər Əliyev vaxtilə 20 Yanvar hadisələrini belə səciyyələndirirdi. Ümummilli Lider böyük uzaqgörənliklə deyirdi ki, biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərindən dərk edəcəyik. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olub.

Həmin faciəli günlərdən artıq 32 il keçir. Ulu Öndərimizin dediyi kimi, 20 Yanvarın tariximizdə tutduğu yeri bu gün daha aydın görürük. 1990-cı il yanvarın 20-də Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar. Xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi və bu, 20 Yanvarı səciyyələndirən ən mühüm məqamlardan biridir.

Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin ertəsi günü - yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və ozamankı respublika rəhbərlərinin xəyanəti üzündən yol verilmiş kobud siyasi səhv olduğunu bəyan etdi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni








Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş siyasi əks-səda doğurdu. Azərbaycan xalqının qəlbində ümid çırağı yandı. 1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Naxçıvan Ali Məclisində qəbul olunmuş və 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət verən, eyni zamanda, Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar ulu öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilirdi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu öndər Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Şəhidlərin xatirəsi əbədiləşdirildi, Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə-kompleksi ucaldıldı, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirildi.

Bu siyasəti davam etdirən Prezident İlham Əliyev 20 Yanvar əlilləri və şəhid ailələrinə daim diqqət və qayğı göstərir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilib.

Bu gün ulu öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoyaraq torpaqlarımızı erməni işğalından azad edərək bölgədə yeni reallıq yaratdı. İndi həmin ərazilərdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri həyata keçirilir.

# Şəhidlər xiyabanını ümumxalq ziyarəti

*Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini dərin hörmət və ehtiramla anır*

**Qanlı Yanvar hadisələrindən 32 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə şəhid qanları ilə Azərbaycan tarixinə şanlı səhifə yazıldı. 20 Yanvar bu tarixin həm kədər, həm də qürur doğuran səhifəsidir.**

Yanvarın 20-də səhər saatlarından başlayaraq insanlar Şəhidlər xiyabanına gələrək, qəhrəman Vətən övladlarının xatirəsinə hörmət və ehtiramlarını bildiriblər.

Vətən uğrunda canından keçmiş oğul və qızlarımızın qəhrəmanlığı unudulmur. Dövlət müstəqilliyimizin bərpası üçün, ilk növbədə, 20 Yanvar şəhidlərinə borcluyuq.

Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından, keçmiş SSRİ rəhbərliyinin qərəzli siyasətindən hiddətlənərək küçə və meydanlara axışan dinc insanlara 1990-cı ilin yanvar günlərində qanlı divan tutuldu. Heç bir xəbərdarlıq edilmədən Bakıya, eləcə də Azərbaycanın bir sıra bölgələrinə yeridilən Sovet ordu hissələri 147 nəfəri amansızcasına qətlə yetirdilər. Hadisələr zamanı 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

Bu qanlı hadisələrin ertəsi günü - yanvarın 21-də ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək imperiya rejiminin respublikamızda həyata keçirdiyi qanlı aksiyasını qətiyyətlə pislədi. Ulu Öndərin bu addımı xalqımıza dayaq və təsəlli oldu.






20 Yanvar faciəsinə dövlət səviyyəsində ilk siyasi-hüquqi qiymət də dahi şəxsiyyət Heydər Əliyev tərəfindən verildi. Şəhidlərin xatirəsi əbədiləşdirildi, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirildi.

Bu siyasəti davam etdirən Prezident İlham Əliyev də 20 Yanvar əlilləri və şəhid ailələrinə diqqət və qayğı göstərir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilib.

Şəhidlər xiyabanını ziyarət edənlər arasında hər yaşda olan insanları - Vətən müharibəsi qazilərini, hərbçiləri, dövlət təşkilatlarının nümayəndələrini, veteranları, gəncləri, məktəbliləri görmək olar. Bu, xalqın qəhrəman Vətən övladlarının əziz xatirəsinə hörmət və ehtiramının parlaq təzahürüdür.

***

Şəhidlərimizin əziz xatirəsi Azərbaycanın bölgələrində, xarici ölkələrdə yaşayan həmvətənlərimiz tərəfindən də anılıb.

**AzərTAc**

# Şəhidlərimizin xatirəsi ədliyyə orqanlarında yad edilib

**Xalqımızın müstəqillik uğrunda mübarizliyinin və şücaətinin təcəssümü olaraq milli qürur mənbəyinə çevrilmiş 20 Yanvar hadisələrindən otuz iki il ötür.**




Bununla bağlı Ədliyyə Nazirliyində və struktur qurumlarda silsilə tədbirlər keçirilib, nazirliyin rəhbərliyi və kollektivi, o cümlədən gənc ədliyyə işçiləri və könüllüləri Şəhidlər xiyabanını ziyarət edərək şəhidlərimizin əziz xatirələrini anıblar.

Nazirlikdə keçirilən tədbirlərdə 20 Yanvar faciəsinin tarixi-siyasi mahiyyətinə nəzər salınaraq bu qanlı qırğının nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini qıra bilmədiyi, qanı bahasına da olsa azadlığa qovuşduğu vurğulanıb. Ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsində müstəsna xidmətləri, o cümlədən 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verdiyi qeyd olunub, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin və əlillərin sosial müdafiəsi ilə bağlı ardıcıl tədbirlərin görüldüyü bildirilib. Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun ölkəmizin müasir, mütərəqqi dövlət kimi tanıdılması, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə geniş çatdırılmasında xidmətləri qeyd edilib.

Xüsusilə vurğulanıb ki, tariximizin qəhrəmanlıq səhifəsini təşkil edən Yanvar hadisələrində öz cəsarətini, mərdliyini, ölkəmizin azadlığı uğrunda canını qurban verməyə hazır olduğunu nümayiş etdirən xalqımız Vətən müharibəsində bir daha bütün dünyaya mübariz, əyilməz və qalib xalq olduğunu göstərib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi, rəşadətli ordumuzun gücü və xalqımızın birliyi sayəsində torpaqlarımız 30 illik işğaldan azad olunaraq tarixi ədalət zəfər çalıb, şəhidlərimizin qanı yerdə qalmayıb.

Xalqımız, o cümlədən ədliyyə işçiləri qəhrəman Vətən övladlarının müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda fədakarlığını heç zaman unutmur, şəhidlərimizin xatirəsini daim uca tutaraq qürur və ehtiramla anırlar.

Bu ərəfədə həmçinin, ədliyyə naziri Fikrət Məmmədov tərəfindən paytaxtdan və bölgələrdən olan vətəndaşların, xüsusilə şəhid ailələrinin videoformatda qəbulu keçirilərək, müraciətləri dinlənilib, digər qayğıları ilə maraqlanılıb. Onlar dövlət başçısının şəhidlərimizin xatirəsini hər zaman uca tutaraq şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Bununla yanaşı, 20 Yanvar hadisələrinin ildönümü ilə bağlı nazirliyin Ədliyyə Akademiyasında və Penitensiar xidmətin Təlim Mərkəzində xüsusi mühazirələr oxunub, mətbuatda çıxışlar edilib, nazirliyin kinozalında filmlər, eləcə də foto-slaydlar nümayiş etdirilib, sosial media hesablarında paylaşımlar edilib.

# Korrupsiyaya qarşı qlobal mübarizədə Azərbaycanın töhfələri yüksək qiymətləndirilir







**Bütün bəşəriyyəti narahat edən korrupsiyanın transmilli xarakter daşıması nəzərə alınaraq bu qlobal bəla ilə mübarizədə beynəlxalq səylərin birləşdirilməsi, korrupsiyaya qarşı mübarizə aparan qurumların fəaliyyətinin əlaqələndirilməsi məqsədilə 2006-cı ildə BMT-nin dəstəyi ilə ixtisaslaşmış beynəlxalq təşkilatın - Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA) yaradılması qərara alınıb.**

Ölkəmiz korrupsiyaya qarşı mübarizəyə, bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verərək dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq onun həmtəsisçilərindən biri olub.

100-dən çox dövləti birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının işində Azərbaycan daim fəal iştirak edir, beynəlxalq antikorrupsiya əməkdaşlığının genişləndirilməsinə mühüm töhfələr verir. Dövlətimizin beynəlxalq nüfuzunun təzahürü olaraq ölkəmizin ədliyyə naziri Fikrət Məmmədov qurumun vitse-prezidentidir.

Ötən ilin dekabrında qurumun İcraiyyə Komitəsinin iclasında Assosiasiyanın rəhbərliyinin səlahiyyət müddətinin başa çatması ilə bağlı yenidən formalaşdırılması məqsədilə yeni namizədlər təsdiq edilib.

Bununla əlaqədar cari il yanvarın 5-də Assosiasiyanın videoformatda Ümumi Yığıncağı təşkil olunub. Bütün qitələrdən olan dövlətlərdən 90-dan çox nümayəndənin qatıldığı tədbirdə qurumun rəhbərliyinin seçkisi keçirilib və Honqkonqun Antikorrupsiya Komissiyasının rəhbəri təşkilatın yeni prezidenti, Azərbaycanın Assosiasiyaya yaradıldığı gündən daim göstərdiyi əməli dəstək, habelə işinə verdiyi dəyərli töhfələri nəzərə alınaraq, respublikamızın ədliyyə naziri isə yenidən qurumun vitse-prezidenti seçilib.

Tədbirdə çıxış edən nazir F.Məmmədov IAACA-nın qlobal antikorrupsiya fəaliyyətində mühüm rolunu qeyd edib, bu sahədə ölkəmizin təcrübəsini bölüşərək, dövlət başçısının rəhbərliyi ilə respublikamızda korrupsiyaya qarşı aparılan mübarizə tədbirlərindən bəhs edib. Nazir Assosiasiyanın inkişafına bundan sonra da öz səylərini əsirgəməyəcəyini bildirib, IAACA-nın gələcək fəaliyyətinə dair təkliflər irəli sürüb.

Eyni zamanda, IAACA-nın Konstitusiyasına dəyişikliklərin edilməsi, qurumun Baş katibinin, fəxri üzv və müşavirlərin seçilməsi məsələsinə baxılıb, ölkəmizin təklifləri nəzərə alınmaqla müvafiq qərarlar qəbul olunub.

Elə həmin gün Assosiasiyanın yeni formalaşdırılmış İcraiyyə Komitəsinin iclası keçirilib. IAACA-nın rəhbər orqanı olan Komitədə bütün qitələrdən, o cümlədən Avropadan İtaliya, İspaniya, Fransa, Azərbaycan və s. təmsil olunur.

İclasda təşkilati və digər məsələlər müzakirə olunub, antikorrupsiya tədbirlərinin təşviqi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə bağlı Assosiasiya rəhbərliyinin konkret regionlar üzrə səlahiyyətləri müəyyən edilib. 20-

dən çox dövləti əhatə edən Şərqi Avropa regionu ölkəmizin ədliyyə nazirinə həvalə olunub.

Qeyd edilib ki, IAACA tərəfindən konkret regionlar üzrə korrupsiya ilə mübarizə sahəsində fəaliyyətin əlaqələndirilməsi, Assosiasiyanın bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlığının genişləndirilməsi, müsbət təcrübələrin bölüşülməsi, bu məqsədlə görüşlərin, treninqlərin və digər tədbirlərin təşkili nəzərdə tutulur.

Bununla əlaqədar iclasda müvafiq fəaliyyət planının hazırlanması qərara alınıb.

# Bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması üzrə tədbirlər davam etdirilir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan hərtərəfli islahatlar respublikamızın davamlı sosial-iqtisadi tərəqqisinə, əhalinin rifahının yüksəldilməsinə xidmət edir.**

Həyata keçirilən islahatlar çərçivəsində yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür, bələdiyyələrin səlahiyyətləri genişləndirilir, maliyyə vəziyyəti yaxşılaşdırılır. Ədliyyə Nazirliyi tərəfindən onların fəaliyyətinə səmərəli inzibati nəzarət həyata keçirilir, aşkar olunan xarakterik pozuntuların, onları doğuran səbəb və şəraitin aradan qaldırılması üzrə zəruri tədbirlər görülür, o cümlədən metodoloji kömək göstərilir.

Yanvarın 18-də nazirliyin Bələdiyyələrlə iş mərkəzində keçirilmiş müşavirədə bu sahədə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

Ədliyyə nazirinin müavini Vilayət Zahirov dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın uğurlu inkişafını, Vətən müharibəsində qazanılmış Böyük Qələbə nəticəsində azad edilmiş doğma torpaqlarımızın dirçəldilməsi istiqamətində aparılan nəhəng bərpa-quruculuq işlərini vurğulayıb. Əhalinin yerli sosial-iqtisadi məsələlərinin həllində iştirak edən bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı görülən tədbirləri qeyd edib.





Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədov çıxış edərək bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət, onların fəaliyyətinin qanunauyğun təşkili və metodoloji kömək sahəsində ötən il görülən işlərdən danışıb, daxil olan bələdiyyə aktlarının inzibati nəzarət qaydasında qanunvericiliyə uyğunluğunun yoxlanıldığını bildirib, yerli özünüidarəetmədə rəqəmsal innovasiyaların tətbiqini, o cümlədən "bələdiyyələrlə iş portalı"nın əhəmiyyətini və onun təkmilləşdirilməsi ilə bağlı görülən tədbirləri qeyd edib.

Həmçinin qanunsuz olaraq verilmiş torpaq sahələrinin bələdiyyə mülkiyyətinə və ya sahibliyinə geri qaytarıldığı, bələdiyyə üzvü və qulluqçularının maarifləndirilməsi, eləcə də bələdiyyələrin fəaliyyətində şəffaflıq və hesabatlılığın təmin olunması, yerli büdcə gəlirlərinin artırılması üzrə aparılan davamlı işin müsbət nəticələri diqqətə çatdırılıb, yerli özünüidarəetmə sahəsində aidiyyəti qurumlarla və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıqdan bəhs olunub.

Müşavirədə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı Milli Məclisə təqdim olunacaq illik məruzənin layihəsi müzakirə olunaraq təkmilləşdirilməsinə dair tapşırıqlar verilib.

Bununla yanaşı, qarşıda duran vəzifələr müzakirə olunub, o cümlədən yerli vergi və ödənişlərin uçotu, hesablanması və yığılması, yerli özünüidarəetmədə müasir İKT-lərin tətbiqi, bələdiyyə torpaqlarından səmərəli istifadə olunması və digər məsələlərlə bağlı çıxışlar dinlənilib, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması, bu sahədə problemlərin həlli istiqamətində bələdiyyələrə metodoloji köməyin gücləndirilməsi ilə bağlı tədbirlər müəyyən edilib.

Tədbirə yekun vuran nazir müavini dövlət başçısının cari ilin yanvarın 12-də yerli televiziya kanallarına verdiyi müsahibəsinə diqqət çəkərək ölkəmizin gələcək inkişafı üçün yeni yol xəritəsinin müəyyənləşdirildiyini, yerli özünüidarəetmə fəaliyyətinin də müasir dövrün tələblərinə uyğunlaşdırılmasının zəruriliyini bildirib, qarşıda duran vəzifələrin mütəşəkkil icrası, o cümlədən vətəndaşların müraciətlərinə qayğı ilə yanaşılması, etik davranış qaydalarına dönmədən əməl edilməsi, korrupsiyanın yolverilməzliyi ilə bağlı və digər konkret tapşırıqlar verib.

# Penitensiar xidmətdə əməliyyat müşavirəsi keçirilib



**Yanvarın 21-də Ədliyyə Nazirliyi Penitensiar xidmətində Baş idarənin, eləcə də tabe qurumların rəhbər heyətinin və nazirliyin məsul əməkdaşlarının iştirakı ilə penitensiar sahədə əldə olunmuş nailiyyətlərə və qarşıda duran hədəflərə həsr olunan videokonfrans formatında əməliyyat müşavirəsi keçirilib.**

Ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi Ceyhun Həsənov Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə etdiyimiz parlaq qələbə ilə tarixi ədalətin bərpa olunduğunu bildirib. Qeyd olunub ki, dövlət başçısının müdrik siyasəti nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da güclənib və qarşıya qoyulan əsas hədəflərə nail olunub. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı və sürətli bərpa işlərinə başlanılıb. Füzuli-Şuşa Zəfər yolunun, Füzuli şəhərində Beynəlxalq Hava Limanının açılışı baş tutub, Ağdam şəhərinin, Zəngilan və Laçın Beynəlxalq Hava limanlarının təməli qoyulub. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə mühüm işlər görülüb, mədəni-tarixi irsimizin təbliği, şəhid ailələrinə dəstək və qazilərimizin xaricdə müalicəsi yüksək səviyyədə təşkil olunub. Bütün bu müddət ərzində dövlət başçısının işğaldan azad olunmuş ərazilərə müntəzəm səfərləri böyük dirçəlişin və böyük qayıdışın təminatıdır.

Müşavirədə Penitensiar xidmətin ötənilki fəaliyyətinin yekunları barədə məlumat verilərək bildirilib ki, ölkə başçısının tapşırıqlarına uyğun olaraq penitensiar sistemin inkişafına, kadr potensialının gücləndirilməsinə, həbs edilmiş şəxslərin, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılmasına, onların hüquqlarının etibarlı qorunmasına yönəlmiş ardıcıl və məqsədyönlü tədbirlər hə-

yata keçirilib. Ölkədə tətbiq olunmuş xüsusi karantin rejiminin tələblərinə ciddi riayət olunaraq penitensiar müəssisələrdə davamlı olaraq dezinfeksiya işləri və profilaktiki tədbirlər davam etdirilib, yaş qrupları üzrə işçi heyətin və məhkumların COVID-19 xəstəliyi əleyhinə vaksinasiyası aparılıb.

Azərbaycan Respublikası Prezidentinin humanist siyasətinin davamı olan 18 mart 2021-ci il tarixli, 625 məhkuma şamil olunan Əfv Sərəncamı vaxtında və qüsursuz icra edilib, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 425 nəfər cəzanın çəkilməmiş hissəsindən azad olunub, 98 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, ömürlük azadlıqdan məhrum edilmiş 3 nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilib.

Ölkə başçısının təşəbbüsü ilə Milli Məclis tərəfindən 05.11.2021-ci il tarixdə "8 "Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərar qəbul edilib. Amnistiya aktının təsiri altına düşən məhkumlardan 3411 nəferinə və ya 60%-nə amnistiya aktı tətbiq edilib. Onlardan 2704 məhkum azad olunub, 707 məhkumun cəza müddəti azaldılıb.

1 may 2020-ci il tarixdə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı qəbul olunmuş Qanunun icrası davam etdirilib, bu dövrdə qanunun təsiri altına düşən məhkumların müvafiq sənədləri məhkəmələrə təqdim edilib, məhkəmələr tərəfindən 63 nəfər azad olunub, 4 nəfərin cəza çəkdiyi rejim dəyişdirilib, 730 nəfərin cəza müddəti azaldılıb.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad olunma, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi, sənədləşmənin aparılmasında mövcud olmuş nöqsanların aradan qaldırılması üzrə tədbirlər davam etdirilib. Virtual qaydada keçirilən 240 iclasda Xüsusi Komissiya tərəfindən məhkəməyə 2.214 müraciətin göndərilməsi tövsiyə edilib. Məhkəməyə göndərilmiş müraciətlərdən 1907-si, yəni 86%-i təmin edilib.

Keçirilən kompleks əməliyyat-rejim tədbirləri nəticəsində həbs edilmiş şəxslər və məhkumlar tərəfindən törədilməsi ehtimal olunan 753 cinayət hadisəsinin qarşısı alınıb.

Qeyd olunub ki, 2021-ci ildə məhkum və həbs edilmiş şəxslər, görüşə gəlmiş, sovqat gətirmiş vətəndaşların üzərindən ümumilikdə 193,371 qram narkotik və psixotrop maddələr, 47 ədəd mobil telefon aşkar edilərək götürülüb və qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülüb.

Cinayətkarlıqla mübarizədə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqələr səmərəli təşkil olunub. Xidmətin əməliyyat aparatının Daxili İşlər Nazirliyinin müvafiq qurumları ilə birgə keçirdiyi əməliyyat tədbirləri nəticəsində Abşeron, Cəlilabad və Yasamal rayonlarının ərazisində 43 kiloqramdan çox müxtəlif növ narkotik vasitələr aşkar edilərək götürülüb, 39 epizod üzrə cibgirlik etmiş şəxs və quldurluqla məşğul olan cinayətkar dəstənin üzvləri saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunub. Penitensiar xidmətin əməliyyat aparatının məlumatı əsasında 2003-cü ildə Bakı şəhərinin Əmircan qəsəbəsində qətl hadisəsi törətmiş şəxs müəyyən edilib və həmin cinayət hadisəsi açılıb.

Birgə keçirilmiş əməliyyat tədbirləri nəticəsində həbs edilmiş şəxslər və məhkumlar tərəfindən könüllü olaraq təqdim olunmuş 1 ədəd tapança və 2 ədəd tüfəng ərazi polis orqanlarına təhvil verilib.

Bundan əlavə, diqqətə çatdırıb ki, ədliyyə orqanlarına işə qəbul üzrə Müsabiqə Komissiyasının şəffaf və səmərəli fəaliyyəti, vakant vəzifələrin vaxtında komplektləşdirilməsi nəticəsində Penitensiar xidmətə 187 nəfər işə qəbul edilib. Vətən müharibəsi iştirakçısı olmuş, dövlət mükafatına layiq görülmüş Xidmətin 5 mülki işçisi Nazirliyin rəhbərliyi tərəfindən qəbul edilərək dəfələrlə mükafatlandırılıb. Onlardan 2 nəfəri kiçik rəis heyətinə qulluğa qəbul edilib. Ümumilikdə Vətən müharibəsində iştirak etmiş 19 nəfər kiçik rəis heyətinə, 2 nəfər isə mülki vəzifələrə işə qəbul olunublar.

Cəzaçəkmə müəssisələrində fəaliyyət göstərən 8 peşə məktəbi, 11 peşə filialı və qruplarında 17 ixtisas üzrə 62 qrupda 1.220 nəfər məhkum peşə təhsilinə cəlb olunub. Onlardan 946 məhkum təhsillərini başa vuraraq müvafiq diplomlara yiyələniblər.

Müşavirədə Penitensiar xidmətin cəzaçəkmə müəssisələrinin rəhbərlərinin çıxışları dinlənilib.

# Vətəndaşlara daha keyfiyyətli ədliyyə xidmətlərinin göstərilməsi diqqət mərkəzindədir





**Ölkə Prezidenti cənab İlham Əliyevin müasir çağırışlara uyğun həyata keçirdiyi islahatlar çərçivəsində ədliyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə, əhaliyə göstərilən hüquqi xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılmasına xüsusi diqqət yetirilir.**

Yanvarın 24-də Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində keçirilən müşavirədə bu sahədə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

Tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini Toğrul Musayev ötən ilin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Böyük Qələbəmizin birinci ildönümü ilə əlamətdar olduğunu, 2022-ci ilin parlaq zəfərimizin simvolu olan Şuşa şəhərinin Azərbaycan xalqı üçün tarixi əhəmiyyəti, yüksək mədəni-mənəvi dəyəri nəzərə alınaraq, ölkəmizdə "Şuşa İli" elan edildiyini vurğulayıb.

Vətən müharibəsi iştirakçılarının, bütövlükdə şəhid ailəsi üzvlərinin və yaralananların hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğu bildirilərək, onların problemlərinin həlli ilə bağlı sosial layihələrin həyata keçirilməsində ədliyyə orqanlarının fəaliyyəti qeyd edilib.

Baş idarənin rəisi İlqar Məmmədov çıxış edərək iqtisadi münasibətlərin inkişafında və vətəndaşların mülki hüquqi məsələlərinin həllində önəmli rol oynayan qeydiyyat və notariat orqanlarının fəaliyyəti haqqında geniş məlumat verib, ötən il rəsmiləşdirilən notariat hərəkətlərinin sayının 17%, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı üzrə aparılan əməliyyatların isə 35% artdığını bildirib.

Vətən müharibəsi iştirakçıları ilə bağlı həyata keçirilən sosial dəstək proqramları çərçivəsində 7.700-ə yaxın şəhid ailə üzvünə qısa müddətdə vərəsəlik şəhadətnamələri təqdim edilərək, onların sosial ödəmələrinin vaxtında təmin olunduğu, bu sahədə məlumatlılığın artırılması məqsədilə nazirliyin rəsmi internet saytında "Vərəsəlik şəhadətnaməsi" adlı bölmənin istifadəyə verildiyi qeyd olunub. Vurğulanıb ki, şəhid ailələrinə yardım məqsədilə xüsusi notariuslar onlara göstərilən xidmətləri vətəndaşlıq mövqeyindən çıxış edərək öz hesabına həyata keçirirlər.

Həmçinin qeyd olunub ki, əvvəllər işğal olunmuş rayonların əhalisinə aid 700 minə yaxın vətəndaşlıq vəziyyəti akt qeydinin bərpa olunaraq azad edilmiş ərazilərin qeydiyyat qurumlarının istifadəsinə verilməsi onların sakinlərinin müvafiq sənədləri daha rahat əldə etmələrinə imkan yaradıb.

Tədbirdə əhaliyə məsafədən göstərilən rəqəmsal ədliy-

yə xidmətlərinə toxunulub, dövlət başçısının tapşırıqlarına uyğun olaraq doğumun və ölümün elektron qaydada qeydə alınması və elektron şəhadətnamələrin təqdim edilməsi xidmətlərinin istifadəyə verildiyi bildirilib.

Eyni zamanda əhali barədə məlumatların çevik və dəqiq qeydə alınması, o cümlədən işğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşmanın təmin edilməsi, habelə aqrar islahatlar çərçivəsində kənd təsərrüfatı torpaqlarının fermerlərin istifadəsinə verilməsi prosesinin sürətləndirilməsi ilə bağlı 1.500-ə yaxın icra hakimiyyəti nümayəndəliyinin nazirliyin aidiyyəti elektron informasiya sistemlərinə qoşulmasının təşkil edildiyi diqqətə çatdırılıb.

Bununla yanaşı, xaricdə yaşayan soydaşlarımızın ədliyyə xidmətlərinə əlçatanlığının artırılması məqsədi ilə ölkəmizin xaricdəki konsulluqlarının da bu sistemlərdən istifadə imkanlarının yaradıldığı barədə məlumat verilib.

Vətəndaş cəmiyyəti institutlarının bəhrələndiyi "Fərdi elektron pəncərə" elektron məlumat sistemi vasitəsi ilə hüquqi şəxslərin reyestr məlumatlarının, habelə qrantların və digər formada ayrılan yardımlar üzrə sənədlərin qeydiyyatına dair elektron xidmətlərin tətbiqi qeyd olunub.

Həmçinin vətəndaş məmnunluğu doğuran "Mobil notariat" vasitəsilə göstərilən xidmətlərin dairəsinin genişləndiyi, artıq 200.000-dən çox istifadəçisi olan bu tətbiqdən xaricdə yaşayan soydaşlarımızın, Qarabağ və Şərqi Zəngəzurda olan vətəndaşlarımızın, o cümlədən hərbçilərimizin faydalandığı vurğulanıb.

Müşavirədə görülmüş işlərlə yanaşı, qarşıda duran vəzifələr müzakirə olunub, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər müəyyən edilib.

Tədbirə yekun vuran nazir müavini dövlət başçısının cari il yanvarın 12-də yerli KİV nümayəndələrinə verdiyi müsahibədə şəffaflığın və hesabatlılığın təmin olunması, məmur-vətəndaş təmaslarının minimuma endirilməsi və korrupsiyaya şərait yaradan digər halların qarşısının alınması ilə bağlı tələblərini xüsusilə diqqətə çatdıraraq əhaliyə göstərilən hüquqi xidmətlərin səviyyəsinin yüksəldilməsini, bu sahədə ASAN modelinə uyğun innovativ yanaşmaların geniş tətbiqini, vətəndaşların, həmçinin qayğıya ehtiyacı olan insanların müraciətlərinə daim xüsusi həssaslıqla və diqqətlə yanaşılmasını tapşırıb.

Eyni zamanda, əhaliyə xidmət sahəsində işin səmərəli təşkilinə nəzarətin artırılması, struktur qurumların fəaliyyətinin ölkə başçısının dövlət idarəçiliyinin təkmilləşdirilməsinə dair tapşırıqlarına uyğun optimallaşdırılması, kadrlara münasibətdə tələbkarlığın gücləndirilməsi, əməkdaşlar tərəfindən etik davranış qaydalarına və icra intizamına dönmədən əməl olunması ilə bağlı və digər konkret göstərişlər verilib.

# Məhkəmə ekspertizası fəaliyyəti ədalət mühakiməsinin səmərəliliyinə xidmət edir

**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları çərçivəsində ədalət mühakiməsinin həyata keçirilməsində və cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynayan Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir.**

Yanvarın 26-da bu sahədə görülən işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə ədliyyə nazirinin müavini Eldar Nuriyev çıxış edərək məhkəmə ekspertizası fəaliyyətinin dövlət başçısının tapşırıqlarına uyğun müasirləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, alternativ mexanizmlərin tətbiqi ilə bağlı həyata keçirilən tədbirləri qeyd edib. Vətən müharibəsində Ermənistanın dinc əhaliyə qarşı törətdiyi cinayətlərin istintaqı və mülki infrastruktura dəymiş ziyanın qiymətləndirilməsi məqsədilə yüzlərlə cinayət işi




üzrə ekspertizaların icra edildiyini, 500-dən çox əmlak, o cümlədən fərdi yaşayış evləri, sənaye obyektləri üzrə tədqiqatlar aparıldığını vurğulayıb.

Mərkəzin rəis əvəzi Rahim Rəhimov ötən il məhkəmə və hüquq-mühafizə orqanları tərəfindən təyin olunan ekspertizaların sayının 25 faizdən çox artdığını, ekspertizaların 50%-ə qədərinin daxili işlər orqanları, 33%-nin məhkəmələr, 8%-nin prokurorluq, qalanının isə digər qurumlar tərəfindən təyin edildiyini bildirib.

Qeyd olunub ki, keçirilən ekspertizaların 24%-i cinayət, 31%-i mülki, kommersiya və digər qeyri-cinayət işləri, habelə 45%-i isə istintaqa qədər materiallarla bağlı olub.

Ümumilikdə, 41 ekspertiza ixtisası, o cümlədən ballistik, trasoloji, narkotik vasitələr, yol-hərəkət hadisələri, tikinti-texniki, əmtəəşünaslıq, xətşünaslıq və başqa növlər üzrə 38 mindən çox işə baxılıb, ekspertlər tərəfindən 1 milyondan çox tədqiqat obyekti araşdırılaraq qoyulan sualların 97%-nin həllinə nail olunub.

Cəmiyyətin inkişafı və mülki hüquq münasibətlərinin artması, eyni zamanda əhalinin, xüsusilə sahibkarların məhkəmələrə inamının yüksəlməsi və hüquqların məhkəmə müdafiəsinə üstünlük verilməsi nəticəsində bəzi növlər, o cümlədən iqtisad ekspertizaları üzrə işlərin sayı əhəmiyyətli dərəcədə çoxalıb.

Bildirilib ki, cinayətkarlıqla mübarizədə təhqiqat və istintaq orqanlarının həyata keçirdiyi tədbirlər çərçivəsində Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən elm və texnikanın nailiyyətləri tətbiq edilməklə cinayət hadisələri ilə bağlı alət və vasitələrin, odlu və soyuq silahların, atəş, insan və digər izlərin, predmetlərin tədqiqi aparılıb.

Eyni zamanda, narkotik maddələrin növü, tərkibi, miqdarı və digər xüsusiyyətləri ilə bağlı ekspertizaların nəticələrinin narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasında əhəmiyyəti qeyd olunub.

Bundan əlavə, yol-nəqliyyat hadisələri ilə bağlı aparılan ekspertizaların təhlili göstərir ki, daha ağır nəticələrə səbəb olan hadisələr əsasən sürət həddini aşma və vaxtında azaltmama, yolayrıcında keçmə qaydalarını pozma, svetoforun qadağanedici işığına riayət etməmə, eyni zamanda digər hərəkət iştirakçılarının təhlükəli şərait yaratması və s. ilə bağlı olub.

Məlumat verilib ki, əmtəəşünaslıq ekspertizası zamanı isə mülkiyyət əleyhinə olan cinayətlər üzrə əmlakın qiymətləndirilməsi, dəymiş ziyanın hesablanması və s. ilə bağlı tədqiqatların aparılması vətəndaşların mülkiyyət və sahibkarlıq hüquqlarının təminatına yönəlib.

Eyni zamanda, mühəndis-texniki ekspertizası üzrə tikinti quraşdırma və təmir işlərində pozuntuların olub-olmaması müəyyən edilib, vətəndaşların mülkiyyət hüquqları ilə bağlı

mübahisələr üzrə minlərlə tikililərə, torpaq və əmlaka yerində baxış keçirilərək araşdırma aparılıb.

İclasda həmçinin, xətşünaslıq, sənədlərin texniki, linqvistik, kompüter-texniki ekspertizaları üzrə işlərə toxunularaq sənədlərin, imzaların, pasportlarda möhür, ştamp və digər rekvizitlərin saxtalaşdırılması, o cümlədən COVID-19 pasportlarının saxta üsullarla hazırlanması, audio-video materialların montaj edilməsi ilə bağlı və digər tədqiqatlar aparılaraq həqiqətlərin üzə çıxarıldığı vurğulanıb.

Bildirilib ki, ədalət mühakiməsinin çevik həyata keçirilməsi məqsədilə ekspertizaların bir çoxunun icrası qanunvericiliklə müəyyən olunmuş müddətdən tez başa çatdırılıb. Eyni zamanda, ekspertizaların keçirilməsi ilə bağlı dövlət büdcəsinə ödənilməli vəsaitin miqdarı da əvvəlki illə müqayisədə xeyli artıb.

Həmçinin, elmi-tədqiqat və metodiki iş diqqətdə saxlanılaraq ekspertizaların daha keyfiyyətli təyini, aparılması və ekspert rəylərinin qiymətləndirilməsi, bu sahədə Mərkəzin imkanlarından səmərəli istifadə olunması və s. ilə bağlı hazırlanmış 100-dən artıq metodik tövsiyə məhkəmə və istintaq orqanlarına kömək məqsədilə göndərilib.

Bununla yanaşı, ekspertiza tədqiqatlarının dolğun və dəqiq aparılmasına, yeni növ ekspertizaların keçirilməsinə və ekspert rəylərinin beynəlxalq miqyasda tanınması məqsədilə akkreditasiyaya xüsusi önəm verildiyi qeyd edilib, ekspertiza növlərinin layiq görüldüyü beynəlxalq standartlara uyğunluq sertifikatının ötən il daha dörd il müddətinə yeniləndiyi vurğulanıb.

Müşavirədə Mərkəzin iş üsul və vasitələrinin təkmilləşdirilməsi məqsədilə müasir innovasiyaların tətbiqi, habelə ekspertizaların təyin olunması barədə qərar və ya qərardadların hərəkət dövriyyəsini izləməyə imkan verən "Elektron ekspertiza" informasiya sisteminin yaradılması ilə bağlı zəruri tədbirlərin görüldüyü diqqətə çatdırılıb.

Həmçinin, qarşıda duran vəzifələr müzakirə olunaraq, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması, o cümlədən metodik və profilaktik fəaliyyətin gücləndirilməsi, məhkəmə-istintaq orqanlarına həqiqətlərin üzə çıxarılmasında elmi-texniki tərəqqinin nailiyyətlərinin aşılanması, qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə ekspertiza fəaliyyətinin səmərəliliyinin və ekspert rəylərinin keyfiyyətinin artırılması ilə bağlı konkret tapşırıqlar verilib və digər tədbirlər müəyyən edilib.

# Prezident İlham Əliyevin imzaladığı yeni qanunlar hərtərəfli inkişafa və əhalinin rifahına xidmət edir

**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq qələbə qazanan ölkəmiz bu gün özünün ən qüdrətli dövrünü yaşayır, azad edilmiş ərazilərimiz nəhəng bərpa-quruculuq işləri aparılmaqla yenidən dirçəlir.**

Eyni zamanda müasir çağırışlara uyğun hərtərəfli islahatlar uğurla davam etdirilir. Dövlət başçısının imzaladığı yeni qanunlar, strategiyalar ölkə həyatının bütün sahələrini əhatə etməklə davamlı sosial-iqtisadi tərəqqiyə, əhalinin rifahının yüksəldilməsinə xidmət edir.

Bu fikirləri yanvarın 28-də Ədliyyə Nazirliyində keçirilmiş müşavirədə nazir müavini Azər Cəfərov deyib. Bildirib ki, respublikamızda aparılan genişmiqyaslı islahatlar ictimai münasibətlərin bütün sahələrini əhatə etməklə yeni mühüm qanunların qəbul olunması ilə müşayiət olunur. Ədliyyə Nazirliyi qanunvericilik bazasının təkmilləşdirilməsi prosesində daim fəal iştirak edir, yeni qanun layihələri hazırlayır,




onlara hüquqi rəy verir.

Müşavirədə bu sahədə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub. Qanunvericilik baş idarəsinin rəisi Adil Əliyev sosial, iqtisadi, inzibati, hərbi və digər məsələlərlə bağlı nazirlik tərəfindən 2021-ci ildə hazırlanan yeni hüquqi akt layihələrinin sayının 35% artdığını, onların hüquqi ekspertizası zamanı sui-istifadəyə, hüquqi qeyri-müəyyənliyə yol verilməməsi, habelə insan hüquqlarının təminatı, digər qanunvericilik aktlarına və beynəlxalq hüquqi sənədlərə uyğunluğu məsələlərinə xüsusilə diqqət yetirildiyini bildirib.

Dövlət başçısının yeni fərman və sərəncamlarının, qəbul olunan qanunların iqtisadi inkişafa, əhalinin, o cümlədən həssas təbəqədən və xüsusi qayğıya ehtiyacı olan insanların sosial və maddi rifahının yaxşılaşmasına yönəldiyi qeyd olunub. Vurğulanıb ki, Vətən müharibəsi iştirakçılarının, o cümlədən şəhid ailələrinin və əlillərin sosial təminatları və onlara güzəştli imtiyazların müəyyən edilməsi, Şuşa şəhərinin tarixi-mədəni irsinin bərpası və qorunması, Qarabağ və Şərqi Zəngəzurda iqtisadi inkişafın və dayanıqlı məskunlaşmanın təmin edilməsi ilə bağlı yeni qanunlar, milli strategiyalar və prioritetlər qəbul olunub.

Eyni zamanda, dövlət başçısının Fərmanı ilə ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət keçmiş və əlil olmuş şəxslərin və onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə birdəfəlik ödəmələrin müəyyən edildiyi, onların verilməsi qaydasına dair təkliflərin hazırlandığı bildirilib.

Tədbirdə həmçinin, ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin müasir çağırışlara uyğun hüquqi tənzimlənməsi ilə bağlı görülən işlər qeyd edilib, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanının icrası çərçivəsində yeni mühüm qanun layihələrinin hazırlanaraq qəbul olunduğu diqqətə çatdırılıb. Ötən il məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar hərracların elektron qaydada təşkili və keçirilməsi, ölkəmizdə arbitraj institutunun təşviqi, məhkəmə icraatının elektronlaşdırılması, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin funksionallığının artırılması və digər məsələlərlə bağlı qanunvericilik layihələrinin hazırlan-

masından bəhs olunub.

Həmçinin əhalinin hüquqi biliklərinin artırılması və qanunvericilikdəki yeniliklərlə bağlı məlumatlılığın təmin olunması məqsədilə nazirliyin elektron qanunvericilik bazasının daim yenilənməsi və interaktivliyi təmin edilib, öz funksionallığı və əlçatanlığı ilə fərqlənən vahid e-qanun.az internet informasiya resursundan istifadə edənlərin sayı ötən il 26 faiz artıb.

Eyni zamanda, dövlət başçısının tapşırıqlarına uyğun olaraq vətəndaşların, şəhid ailələrinin və hərbçilərin müraciətlərinə xüsusi həssaslıqla yanaşılaraq 300-dək müraciətə baxılıb və onların sosial, o cümlədən əmək və ailə münasibətləri, pensiya təminatı, mənzil, habelə torpaq mübahisələri, şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin hüquqları və qaldırdıqları digər məsələlərlə bağlı müvafiq qanunvericiliyin ətraflı izahı verilib.

İclasda görülmüş işlərlə yanaşı, qarşıda duran vəzifələr müzakirə olunaraq yeni qanun layihələrinin hazırlanması və hüquqi ekspertizası, onların qüvvədə olan qanunvericilik aktlarına uyğunlaşdırılması işinin təkmilləşdirilməsi, bu sahədə innovativ yanaşmaların tətbiqi ilə bağlı konkret tədbirlər müəyyən edilib.

Müşavirəyə yekun vuran nazir müavini bu sahədə fəaliyyətin dövlət başçısının yüksək tələblərinə uyğun səmərəliliyinin və keyfiyyətinin artırılması, nazirliyə daxil olan sənədlərin vaxtında, dürüst və keyfiyyətlə icrasının təmin edilməsi, işçilərin təşəbbüskarlığının və məsuliyyət hissinin artırılması, əmək və icra intizamına, etik davranış qaydalarına dönmədən əməl olunması ilə bağlı və digər müvafiq tapşırıqlar verib.

# Ədliyyə Akademiyasının fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər görülür

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları çərçivəsində Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi, tədris işinin ən müasir metodikalar və İKT-lər tətbiq olunmaqla təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər həyata keçirilir.**

Yanvarın 27-də Ədliyyə Akademiyasında bu sahədə görülən işlərə və qarşıda duran vəzifələrə dair videoformatda müşavirə keçirilib. Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq qələbə qazanan ölkəmizin bu gün özünün qüdrətli dövrünü yaşadığını, azad edilmiş ərazilərimizdə geniş bərpa-quruculuq işlərinin aparıldığını vurğulayıb.

Torpaqlarımızın işğaldan azad edilməsinin ölkəmiz üçün yeni imkanlar yaratdığı bildirilərək tarixi Zəfərimizin, ölkəmizin həqiqətlərinin, Qarabağın dirçəlişi ilə bağlı görülən tədbirlərin təbliği, tədris və maarifləndirmə sahəsində fəal iş aparılmasının əhəmiyyəti qeyd olunub.

Müşavirədə geniş dinləyici auditoriyasına malik olan Akademiya tərəfindən müxtəlif kateqoriyadan olan hüquqşünasların hazırlanması və ixtisasının artırılması, tədrisi və




təlimi üzrə tədbirlərin davam etdirildiyi bildirilib.

Pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tətbiqi nəzərə alınaraq müasir İKT-lərin imkanlarından geniş istifadə olunmaqla video-konfrans vasitəsilə distant formada treninqlərin təşkili, peşəkar

təlimçilərin hazırlanması, təlimlərə beynəlxalq ekspertlərin cəlb olunması vurğulanıb.

Qeyd olunub ki, 2021-ci ildə 7.000-ə yaxın ədliyyə işçiləri, hakimlər, vəkillər, mediatorlar və digər hüquqşünaslar, bu orqanlarda çalışmaq istəyən namizədlər icbari təlim, ixtisasartırma və peşə hazırlığı kurslarına cəlb olunublar.

Bununla yanaşı, Akademiyanın xarici dövlətlərlə beynəlxalq əlaqələri genişlənərək, Türkiyə Ədliyyə Akademiyası ilə Anlaşma Memorandumu imzalanıb, Avropa Şurası və Avropa İttifaqı ilə birgə məhkəmə sisteminin səmərəliliyinin artırılması, mediasiya və digər sahələrdə mühüm layihələr təşviq edilib.

Müşavirədə görülmüş işlərlə yanaşı, qarşıda duran vəzifələr müzakirə olunub, Akademiyanın fəaliyyətində müasir innovasiyaların geniş tətbiqi, təlim materiallarının dinləyicilərə əlçatanlığının artırılması, tədris proqramlarına daha aktual və praktikadan irəli gələn mövzuların daxil edilməsi, kitabxananın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər müəyyən edilib.

Ölkə Prezidentinin insanlara layiqli xidmət göstərilməsi, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi ilə bağlı tələblərinə uyğun işin qurulması, icra intizamına, etik davranış qaydalarına dönmədən əməl olunması barədə tapşırıqları diqqətə çatdırılıb, elmi fəaliyyətin gücləndirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, tədris tədbirlərinin və əhaliyə göstərilən hüquqi xidmətlərin səmərəliliyinin yüksəldilməsi ilə bağlı və digər göstərişlər verilib.

# Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində ilin yekunları müzakirə olunub





**Yanvarın 10-da Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində ədliyyə orqanlarında 2021-ci il ərzində görülən işlər və qarşıda duran vəzifələrə dair kollegiya iclası keçirilib. Kollegiyanı Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Rəhimov açaraq bildirib ki, nazirlik əsas fəaliyyət istiqamətlərindən biri olan hüquqi maarifləndirmə, təbliğat və profilaktika sahəsində apardığı işləri davam etdirib. "8 noyabr - Zəfər Günü münasibəti ilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 05 noyabr 2021-ci il tarixli Qərarından irəli gələn vəzifələr icra edilib.**

Penitensiar sahədə cəza-icra siyasətinin qüsursuz yerinə yetirilməsi, təhlükəsizlik, islah və tərbiyə işinin səmərəliliyi istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi, eləcə də

məhkumların saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılıb. Məhkumların sağlamlığının qorunması və tibbi təminatının təkmilləşdirilməsi istiqamətində mütəmadi olaraq ardıcıl tədbirlər həyata keçirilib.

Məhkəmə Ekspertizası Mərkəzində müxtəlif ekspertiza sahələri üzrə 382 ekspertiza işinin tədqiqatı aparılıb. Ekspertlərin hazırladıqları metodiki vəsaitlər ekspertiza təyin edən orqanlara göndərilib.

Ötən il məhkəmə və digər dövlət orqanlarının qərarlarının vaxtında və düzgün icra edilməsinə nəzarət artırılıb. İl ərzində yerli icra və probasiya qurumlarının icraatına 6123 icra sənədi daxil olub, bunlardan 2517 iş tam icra olunub, 3044 iş icraya yönəlib. 354 nəfər borclu barəsində axtarış qərarı verilib.

Eyn zamanda, sahibkarlıq sahəsində yoxlama aparmaq səlahiyyətinə malik olan dövlət orqanlarına tövsiyə məktubları göndərilib, həmin orqanların aidiyyəti nümayəndələrinin iştirakı ilə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası" mövzusunda seminar keçirilib.

Həmçinin diqqətə çatdırılıb ki, inzibati ərazi dairəsi üzrə nümayəndələrin iştirakı ilə rayonlarda "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının və notariat hərəkətlərinin aparılmasında qanunvericiliyin tələbləri" mövzusunda seminarlar təşkil olunub.

Əhaliyə göstərilən hüquqi xidmətin səviyyəsi artırılaraq dövlət notariat ofisləri tərəfindən 15000 müxtəlif məzmunlu notariat hərəkətləri, nikah evləri və qeydiyyat şöbələri tərəfindən isə 11287 əməliyyat aparılıb. Dövlət büdcəsinə ümumilikdə 150 min manatadək dövlət rüsumu ödənilib.

Bununla yanaşı, bələdiyyə orqanlarına qanunvericiliyə əməl edilməsi üçün 10 tövsiyə məktubu göndərilib, metodiki vəsaitlər təqdim edilib, müxtəlif dövlət qurumları ilə birgə aktual mövzularda seminarlar təşkil olunub. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq bələdiyyə orqanlarından nazirliyə daxil olmuş bələdiyyə aktlarının hüquqi ekspertizası keçirilib.

Eyni zamanda məlumat verilib ki, hüquqi maarifləndirmə və profilaktikanın önəmini nəzərə alan nazirlik bu istiqamətdə tədbirlərini davam etdirib, nazirliyin əməkdaşları Naxçıvan Dövlət Televiziyasında və Naxçıvan Dövlət Radiosunda efirə gedən proqramlarda çıxışlar edib, "Şərq qapısı" qəzetində, rayon (şəhər) qəzetlərində, elektron informasiya resurslarında məqalələri dərc olunub.

Nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq, dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə təhsil alan tələbələr üçün təlimlər, praktiki dərslər və seminarlar təşkil edilib. Tələbələr nazirliyə, tabe qurumlara və Naxçıvan bələdiyyəsinə dəvət olunaraq gündəlik iş prosesi ilə tanış edilib, onları maraqlandıran suallara cavab verilib. Gənclər Fondu ilə birlikdə "Məhkəmə simulyasiyası" layihəsi, Naxçıvan Dövlət Texniki Kollecinin bələdiyyə işi ixtisası üzrə tələbələri ilə görüş keçirilib.

Hüquqi aktların Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə qanunvericiliyə uyğun və vaxtında daxil edilməsi təmin olunub.

İclasda görülmüş işlərlə yanaşı, ədliyyə orqanlarında yol verilmiş nöqsan və çatışmazlıqlar müzakirə edilib, ədliyyə qulluqçuları qarşısında qoyulan tələblər, eləcə də ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı verilən bütün tapşırıqların təmin edilməsinin vacibliyi vurğulanıb.

Nazir qeyd edib ki, Ali Məclis Sədrinin sahibkarlıq sahəsində, ekspertiza, icra və bələdiyyə fəaliyyəti ilə bağlı qarşımıza qoyduğu tapşırıqlar il ərzində əsas vəzifələrimizdən olmaqla icrası təmin olunacaqdır. İlk növbədə tapşırıqların icrası istiqamətində görülən işlərə nəzarət gücləndirilməli, nazirliyin bütün xidmət sahələri işə diqqəti daha da artırmalıdır.

İclasda nazirliyin məsul işçiləri tərəfindən çıxışlar edilib, müzakirələr aparılıb.

# Ədliyyə Nazirliyinin vahid Çağrı Mərkəzinin təqdimatı olub

**Əhalinin ədliyyə fəaliyyəti barədə mütəmadi məlumatlandırılması, vətəndaşların ədliyyə orqanlarına əlçatanlığının təmin olunması məqsədilə həm kütləvi informasiya vasitələrinin, həm də vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı, eləcə də Ədliyyə Nazirliyinin rəsmi saytlarının və sosial şəbəkələrdəki səhifələrinin imkanlarından geniş istifadə olunması ənənəsi davam etdirilir. Dövlətimizin başçısının tapşırıqlarının icrası istiqamətində xüsusi karantin rejimi dövründə nazirliyin rəsmi feysbuk səhifəsində ədliyyənin müxtəlif fəaliyyət istiqamətləri üzrə canlı yayımların təşkili də əhalinin hüquqi maarifləndirilməsində mühüm əhəmiyyətə malikdir.**




Bu istiqamətdə həyata keçirilən növbəti tədbirlər çərçivəsində yanvarın 24-də Ədliyyə Nazirliyi tərəfindən onlayn qaydada növbəti canlı yayım təşkil edilib.

Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova və İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə nazirliyin vahid Çağrı Mərkəzinin fəaliyyəti və texniki imkanları barədə ictimaiyyətə ətraflı məlumat veriblər.

Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması ilə bağlı tövsiyə və tapşırıqları Ədliyyə Nazirliyinin daim diqqət mərkəzindədir. Bununla əlaqədar ədliyyə fəaliyyəti ilə bağlı vətəndaşların müraciət imkanlarının asanlaşdırılması məqsədilə nazirliyin saytında "Vətəndaşlar üçün" ayrıca bölmə yaradılaraq bütün əlaqə vasitələri, eyni zamanda, qəbul işinin təkmilləşdirilməsi məqsədilə nazirliyin rəhbərliyinin və bütün struktur qurumlarının qəbul günləri yerləşdirilib. Hazırda pandemiya şəraiti ilə əlaqədar karantin rejiminin davam etməsi nəzərə alınaraq videoformatda qəbulların keçirilməsi mütəmadi xarakter alıb, vətəndaşların müraciətlərinə elektron qaydada baxılması təmin edilir.

Azərbaycan Respublikası Prezidentinin dövlət kommunikasiya siyasətinə uyğun olaraq Ədliyyə Nazirliyinin fəaliyyətində şəffaflıq və ictimai iştirakçılıq genişləndirilir, bu sahədə innovativ yanaşma tətbiq olunur. Bununla əlaqədar vətəndaşların müraciətlərinə daha operativ, mütəşəkkil qaydada baxılmasının təmin edilməsi üçün çağrı mərkəzlərinin fəaliyyəti mühüm rol oynayır.

Ədliyyə Nazirliyi tərəfindən

2011-ci ildən vətəndaş müraciətlərinə təxirəsalınmadan obyektiv baxılaraq zəruri tədbirlər görülməsi, onlara ciddi nəzarət edilməsi ilə bağlı "qaynar xətt"lər yaradılaraq fəaliyyət göstərir.

Dövlətimizin başçısının 2018-ci il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda Ədliyyə Nazirliyinin "qaynar xətt"lərin işinin çağrı mərkəzlərinin fəaliyyətinə dair qanunvericiliyin tələblərinə tam uyğun qurulması və Çağrı Mərkəzinin fəaliyyətinin müasir informasiya və kommunikasiya texnologiyaları (İKT) tətbiq olunmaqla təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar müəyyənləşdirilib.

Bununla əlaqədar nazirlikdə fəaliyyət göstərən "qaynar xətt"lərin əsasında vahid Çağrı Mərkəzinin yaradılması və müasir İKT-nin tətbiqi istiqamətində zəruri tədbirlər görülüb. Belə ki, IP telefoniya texnologiyaları əsasında zəruri proqram texniki infrastruktur formalaşdırılmış, üçrəqəmli (881) vahid telefon nömrəsi əldə edilib, əməkdaşlar üçün avtomatlaşdırılmış işçi yerləri quraşdırılıb.

Diqqətə çatdırılıb ki, eyni zamanda, Çağrı Mərkəzində çalışacaq işçilər üçün vəzifə təlimatı hazırlanıb, nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq vətəndaşların daha çox ünvanladıqları müraciətlərlə bağlı şablon cavab formaları tərtib edilərək müvafiq sistemə yerləşdirilib.

Həmçinin aidiyyəti əməkdaşlarla Ədliyyə Akademiyası tərəfindən stressədavamlılıq və gərgin rejimdə işləmək və digər zəruri peşə bacarıqlarının artırılması ilə bağlı ünsiyyətin növləri, ünsiyyət zamanı tərəf müqabilinə təsir etmənin əhəmiyyəti, şəxsiyyətlərarası qarşılıqlı münasibətlər, konfliktlər və onların həlli metodları, ədliyyə orqanları işçilərinin etik davranış qaydalarının tələbləri və bu qaydaların pozulmasına görə məsuliyyət mövzularında təlimlər keçirilib.

Operatorlar Çağrı Mərkəzinə daxil olan zəngləri qəbul edəcək və dərhal cavablandıracaq, müraciətin birbaşa cavablandırılması mümkün olmadıqda aidiyyəti üzrə nazirliyin struktur qurumlarına ötürəcəklər.

Canlı yayımda, həmçinin maraq doğuran digər məsələlərə toxunulub, sosial şəbəkə istifadəçilərinin sualları cavablandırılıb.

# Ədliyyə Nazirliyi səmərəli beynəlxalq əməkdaşlıq həyata keçirir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi islahatlar çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsinə böyük önəm verilir.**

Nazirlik tərəfindən 34 dövlətin, o cümlədən Avropa, Asiya, Afrika qitələrindən, Yaxın Şərq, MDB və sərhədyanı ölkələrin ədliyyə qurumları ilə ikitərəfli sazişlər çərçivəsində əməkdaşlıq edilir.

Bunun nəticəsində beynəlxalq hüquqi yardımla bağlı nazirliyə daxil olan sorğuların sayı dəfələrlə artaraq ötən ildə 23 minə çatıb.

Qonşu və dost İranın Ədliyyə Nazirliyi ilə əməkdaşlığa dair Memorandum və Birgə Bəyanat, həmçinin hüquqi yardım sahəsində dövlətlərarası müqavilələr çərçivəsində səmərəli qarşılıqlı fəaliyyət, o cümlədən məhkumların cəzalarının qalan hissəsinin çəkilməsi üçün vətəndaşları olduqları ölkələrə verilməsi həyata keçirilir.

Dövlətimizin hər zaman qarşılıqlı hörmətə, mehriban qonşuluğa əsaslanan humanist siyasətinin və xoş niyyətinin əyani təzahürü olaraq cari il yanvarın 19-da ölkəmizdə cəza

çəkən 3-ü qadın olmaqla 21 nəfər iranlı məhkum xüsusi karantin rejiminin tələblərinə əməl edilməklə öz ölkəsinə təhvil verilib. Bununla da Azərbaycanda cəza çəkən bütün iranlı qadın məhkumlar qarşı tərəfə təhvil verilib.

Bütün bu tədbirlər məhkumların və onların ailə üzvlərinin mənafelərinin təmin olunmasına, öz ailələrinə yaxın ərazidə cəza çəkmələrinə və sosial adaptasiyasına xidmət edir.

Beləliklə, son 5 ildə 136 məhkum qarşı tərəfə verilib, bununla yanaşı dövlətimizin humanist aktları ilə həmin dövrdə 100-ə yaxın iranlı məhkum fərdi qaydada Azərbaycan Prezidenti tərəfindən əfv olunub, qəbul edilmiş amnistiya aktları, o cümlədən Zəfər Günü münasibətilə elan olunmuş amnistiya və ya digər aktlarla vaxtından əvvəl cəzadan azad ediliblər.



Ədliyyə Nazirliyi tərəfindən bu sahədə tədbirlər bundan sonra da davam etdirəcəkdir.

# Notariat fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər növbəti müsabiqəyə dəvət edilirlər

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatlar nəticəsində iqtisadi münasibətlərin inkişafı notariat institutunun əhəmiyyətini artırmaqdadır. Notariat fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə bu istiqamətdə müasir innovasiyalar tətbiq olunaraq ardıcıl tədbirlər görülür, həmçinin notariuslar korpusunun şəffaf prosedurlarla formalaşdırılması davam edir.**

Bununla bağlı Ədliyyə Nazirliyinin Mətbuat xidməti bildirir ki, Ağcabədi, Gədəbəy, Xaçmaz, İmişli, Kürdəmir, Lənkəran, Şamaxı, Ucar, Zərdab rayonlarında, habelə Gəncə və Mingəçevir regional "Asan xidmət" mərkəzlərində notarius vəzifələrində fəaliyyət göstərmək üçün şəhadətnamə almaq istəyən "Notariat haqqında" Qanunun tələblərinə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşları Ədliyyə Nazirliyi tərəfindən növbəti açıq müsabiqəyə dəvət edilirlər.

Xatırladırıq ki, müsabiqənin birinci mərhələsi - test imtahanı Dövlət İmtahan Mərkəzi ilə birlikdə fərdi qaydada, kompüter vasitəsilə keçiriləcək və nəticələrə dair məlumat dərhal yerindəcə təqdim olunacaqdır.

Qanunvericiliyin tələbinə uyğun olaraq test imtahanından zəruri keçid balını toplayan namizədlər növbəti mərhələyə - müsahibəyə buraxılırlar. Müsahibədə uğur qazanan hüquqşünaslar isə Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunurlar, bu zaman onlar həmçinin, notariat fəaliyyəti üzrə təcrübə də keçirlər. İcbari təlimin yekununda aparılan qiymətləndirmənin nəticəsi üzrə notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamə verilir.

Bildirilir ki, müsabiqədə iştirak edəcək hüquqşünaslar üçün test imtahanına və söhbət mərhələsinə mükəmməl hazırlaşmalarına köməklik məqsədilə Ədliyyə Akademiyasında xüsusi hazırlıq kursları təşkil

olunacaqdır.

İmtahanda iştirak etmək arzusunda olan şəxslər sənədlərini 2022-ci ilin yanvar ayının 17-dən etibarən Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinə (Bakı şəhəri, Azadlıq prospekti, 72) bütün iş günləri təqdim edə bilərlər.

Tələb olunan sənədlərin siyahısı, imtahan, müsahibə və icbari təlimin keçirilməsi qaydaları ilə nazirliyin internet saytında (www.justice.gov.az) tanış olmaq, habelə 404-42-28, 404-42-29 nömrəli əlaqə telefonları vasitəsilə məlumat almaq mümkündür.

Test imtahanının vaxtı və yeri barədə əlavə informasiya veriləcəkdir.

# Hakimlərin Seçki Komitəsinin məlumatları

**Dövlət başçısının məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında tapşırıqlarına uyğun olaraq vakant hakim vəzifələrinə, o cümlədən yeni ayrılmış hakim ştatlarına namizədlərin seçilməsi prosesi davam edir.**



Növbəti müsabiqə zamanı 200-dən çox hakimliyə namizəddən 40 nəfəri test üsulu ilə, habelə yazılı və şifahi imtahanlardan müvəffəqiyyətlə keçib və yarım il davam edən tədris kursunu, o cümlədən məhkəmələrdə stajkeçməni uğurla başa vurub.

Həmin namizədlərin peşə hazırlığının yoxlanılması məqsədilə tədrisin nəticələri üzrə onlarla yazılı imtahan keçirilib. İmtahan karantin rejiminə uyğun olaraq zəruri sosial davranış və sanitar-epidemioloji qaydalar gözlənilməklə Dövlət İmtahan Mərkəzində təşkil olunub.

4 saat davam edən imtahanda namizədlər verilmiş hüquqi kazusları həll etməklə, müvafiq məhkəmə qərarlarını tərtib etmək bacarıqlarını nümayiş etdiriblər.

**Ölkə Prezidenti cənab İlham Əliyevin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tövsiyə və tapşırıqları üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin şəffaf şəraitdə və obyektiv meyarlar əsasında seçimi davam edir.**

Test üsulu ilə və yazılı imtahanlarda müvəffəqiyyət qazanmış 83 nəfər namizədlə Hakimlərin Seçki Komitəsi tərəfindən şifahi imtahanlar keçirilib.

COVİD-19 pandemiyası ilə bağlı xüsusi karantin rejiminin tələblərinə əməl olunmaqla keçirilmiş imtahanlarda namizədlərin bilik səviyyəsi, fikirlərini səlist ifadə etmək bacarığı, məntiqi nəticələr çıxarmaq qabiliyyəti, ümumi dünya görüşü qiymətləndirilib, 60 və daha çox bal toplamış 47 nəfər tədris kurslarına buraxılıb.

Həmin kurslarda namizədlərin hakimlik fəaliyyətinə hazırlanmaları təmin ediləcək, hakimin etik davranışı, korrupsiya ilə mübarizə, insan haqları və digər aktual məsələlərə dair mövzular nüfuzlu yerli və beynəlxalq ekspertlərin iştirakı ilə tədris olunacaq, onlar məhkəmələrdə staj keçəcəklər.

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 23, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193, N 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, N 11, maddələr 1682, 1686, 1696, N 12, maddələr 1883, 1900; 2020, N 3, maddə 222, N 5, maddələr 505, 515, 519, N 6, maddələr 670, 672, 681, N 7, maddələr 838, 841, 846, 854, N 8, maddələr 1008, 1011, N 9, maddə 1138, N 11, maddələr 1332, 1333, 1336, N 12 (I kitab), maddələr 1432, 1440; 2021, N 4, maddə 306, N 5, maddə 428, N 6 (I kitab), maddələr 535, 541, 546, 560, N 7, maddələr 701, 705, 711, N 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 5 noyabr tarixli 397-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 116.1-ci maddəyə "bu Məcəllənin" sözlərindən sonra "192.6, 192.10, 192.11, 201, 203," rəqəmləri əlavə edilsin və həmin maddədə "539 - 544" rəqəmləri "539, 540.3 - 540.5, 541 - 544" rəqəmləri ilə əvəz edilsin.

2. 122.2-ci, 124.5-ci, 124.6-cı və 127-1.1-ci maddələrdə "tərtib edilir" sözləri "çıxarılır" sözü ilə əvəz edilsin.

3. 123.2-ci maddədə "tərtib edir" sözləri "çıxarır" sözü ilə əvəz edilsin.

4. 125.5-ci maddədə "tərtib edilməsi" sözləri "çıxarılması" sözü ilə əvəz edilsin.

5. 127-4-cü maddə üzrə:

5.1. 127-4.2.4-cü maddədə "məlumatlar (hüquqi şəxsin adı, VÖEN-i və hüquqi ünvanı)" sözləri "(hüquqi şəxsin adı, VÖEN-i və hüquqi ünvanı) və vəzifəli şəxs haqqında (adı, soyadı, atasının adı, vəzifəsi, fərdi identifikasiya nömrəsi və yaşadığı ünvan) məlumatlar" sözləri ilə əvəz edilsin;

5.2. 127-4.3.1-ci maddədə "tərtib edildiyi" sözləri "çıxarıldığı" sözü ilə əvəz edilsin;

5.3. 127-4.3.2-ci maddədə "tərtib etmək" sözləri "çıxarmaq" sözü ilə əvəz edilsin;

5.4. 127-4.3.7-ci maddədə "127-4.6-cı" sözləri "127-6.1-ci" sözləri ilə əvəz edilsin.

6. 127-5.4-cü maddədə "və ya inzibati tənbeh vermə haqqında elektron qərar tərtib edilmiş" sözləri "tərtib edilmiş və ya inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılmış" sözləri ilə əvəz edilsin.

7. 127-6.1-ci maddəyə "fiziki şəxs" sözlərindən sonra "və ya vəzifəli şəxs" sözləri əlavə edilsin.

8. 192.4-cü maddəyə "məzuniyyət haqlarının" sözlərindən sonra", ezamiyyə xərclərinin, əmək qanunvericiliyində nəzərdə tutulmuş müavinət və digər ödənişlərin" sözləri əlavə edilsin.

9. 398-ci maddənin "Qeyd" hissəsinin 1-ci bəndində "411-413" rəqəmləri "411, 411-1, 412, 413" rəqəmləri ilə əvəz edilsin.

10. 539-cu maddə üzrə:

10.1. adına "orqanının" sözündən sonra "qərarlarının və" sözləri əlavə edilsin;

10.2. aşağıdakı məzmunda 539.1-1-ci maddə əlavə edilsin:

"539.1-1. Əmək qanunvericiliyinin əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitamının əsasları, əmək şəraiti, iş və istirahət vaxtı, məzuniyyət hüququnun həyata keçirilməsi, əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, müavinət və digər ödənişlərin ödənilməsi, qadınların və yaşı 18-dən az olan işçilərin əməyindən istifadənin xüsusiyyətləri ilə bağlı tələblərinə əməl olunması barədə müvafiq icra hakimiyyəti orqanının icrası məcburi olan qərarlarının və göstərişlərinin əmək münasibətlərinin iştirakçıları tərəfindən icra edilməməsinə görə -

vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər iki min manat məbləğində cərimə edilir.";

10.3. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Məcəllənin 539.1-1-ci maddəsində nəzərdə tutulan əməllərə görə inzibati məsuliyyət o halda yaranır ki, həmin əməllər bu Məcəllənin 192-ci maddəsinə əsasən inzibati məsuliyyətə səbəb olmasın.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*
*N433-VIQD*

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; 2018, N 1, maddə 12, N 3, maddə 395, N 5, maddə 888, N 7 (I kitab), maddə 1442; 2019, N 1, maddə 22, N 7, maddələr 1196, 1206, N 12, maddə 1895; 2020, N 7, maddə 826) 93-4-cü maddəsinin ikinci hissəsi üçüncü hissə hesab olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Bu maddənin birinci hissəsində nəzərdə tutulmuş qaydada yüksək hakim vəzifələrinə təyin edilmiş hakimlərin hüquqşünas ixtisası üzrə dövlət orqanlarında (qurumlarında) iş stajı, habelə hüquq sahəsində elmi və pedaqoji fəaliyyət müddəti onların hakimlik stajına hesablanır.".

Maddə 2. Bu Qanun 2021-ci il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*
*N 436-VIQD*

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 3 (I kitab), maddə 126; 2002, N 12, maddə 702; 2004, N 7, maddə 505; 2006, N 2, maddə 66, N 11, maddə 923, N 12, maddələr 1005, 1006; 2007, N 1, maddə 4, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1218; 2008, N 7, maddə 602; 2010, N 2, maddə 70, N 3, maddə 171, N 5, maddə 380, N 7, maddə 578; 2011, N 7, maddələr 585, 620, N 12, maddə 1110; 2014, N 12, maddə 1515; 2019, N 2, maddə 185, N 3, maddə 372, N 5, maddə 800, N 12, maddə 1906; 2020, N 7, maddə 832, N 12 (I kitab), maddə 1424; 2021, N 4, maddə 308, N 6 (I kitab), maddə 541, N 7, maddə 711, N 8, maddə 894) aşağıdakı dəyişikliklər edilsin:

1. 65.5-ci, 118.20-ci və 131.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"65.5. Valideynlik hüquqlarından məhrumetmə barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

"118.20. Uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

"131.4. Övladlığa götürmənin ləğv olunması barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

2. 159-cu maddə üzrə:

2.1. 159.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanları" sözləri ", o cümlədən doğumun, atalığın müəyyən edilməsinin və ölümün elektron qaydada qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

2.2. 159.2-ci maddədə "orqanları öz səlahiyyətləri daxilində" sözləri "orqanının müəyyən etdiyi orqan (qurum) fəaliyyət istiqamətinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi vasitəsilə" sözləri ilə, "aktlarının qeydiyyatını dəyişir, tamamlayır, düzəldir" sözləri "akt qeydlərində dəyişiklik edir" sözləri ilə əvəz edilsin, həmin maddəyə "şəhadətnamələr" sözündən sonra "və ya arayışlar" sözləri əlavə edilsin.

3. 161-ci maddə üzrə:

3.1. adında "aktları qeydlərinə etiraz etmə qaydası" sözləri "akt qeydində dəyişiklik edilməsi" sözləri ilə əvəz edilsin;

3.2. 161.1-ci maddədə "aktlarının qeydindəki səhvlərin düzəldilməsi və ona dəyişikliklər" sözləri "akt qeydində ərizə əsasında dəyişiklik edilməsi" sözləri ilə və "şəxslərin daimi yaşayış yerində" sözləri "şəxsin seçdiyi, məhkəmə qətnaməsi əsasında isə bu barədə qət-

namənin çıxarıldığı yer üzrə" sözləri ilə əvəz edilsin;

3.3. 161.2-ci maddədə "orqanının qeydiyyatı düzəltməkdən və ya dəyişdirməkdən imtina etməsindən" sözləri "orqanının müəyyən etdiyi orqanın (qurumun) akt qeydində dəyişiklik etməkdən imtinasından" sözləri ilə əvəz edilsin;

3.4. 161.3-cü maddədə "qeydiyyatda düzəliş" sözləri "akt qeydində dəyişiklik" sözləri ilə əvəz edilsin;

3.5. aşağıdakı məzmunda 161.4-cü maddə əlavə edilsin:

"161.4. Vətəndaşlıq vəziyyəti akt qeydində dəyişiklik edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

4. 162-ci maddə üzrə:

4.1. adında "aktları qeydlərinin" sözləri "akt qeydinin" sözləri ilə əvəz edilsin;

4.2. 162.1-ci maddədə "aktları" sözü "akt" sözü ilə, "yaşadıqları ərazidə" sözləri "seçdiyi yer üzrə" sözləri ilə və "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.3. 162.2-ci maddədə "İtmiş yazının" sözləri "İtmiş akt qeydinin" sözləri ilə, "orqanları" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.4. aşağıdakı məzmunda 162.3-cü maddə əlavə edilsin:

"162.3. Vətəndaşlıq vəziyyəti akt qeydlərinin bərpa edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

5. 163-cü maddə üzrə

5.1. 163.1-ci və 163.2-ci maddələrdə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda 163.3-cü maddə əlavə edilsin:

"163.3. Vətəndaşlıq vəziyyəti akt qeydlərinin ləğv edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

6. 164.3-cü maddəyə "aktlarının" sözündən sonra "qeydiyyatının elektron qaydada həyata keçirildiyi hallar istisna edilməklə," sözləri əlavə edilsin.

7. Aşağıdakı məzmunda 164.3-1 və 164.3-2-ci maddələr əlavə edilsin:

"164.3-1. Qeydiyyatı elektron qaydada aparılan vətəndaşlıq vəziyyəti aktlarının akt qeydi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vəzifəli şəxsinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilir.

164.3-2. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını aparan vəzifəli şəxs müvafiq qeydin həmin qeyd üzrə razılığı tələb olunan digər şəxslərlə razılaşdırılmasının yoxlanılmasını təmin edir. Nikahda olan valideynlərdən doğulmuş uşağın doğumunun qeydə alınması üçün valideynlərdən biri müraciət edərsə, bu halda güman edilir ki, o digərinin razılığı ilə hərəkət edir. Müraciət edən şəxs tərəfindən yalan məlumat təqdim edilməsi gələcəkdə həmin akt qeydinin ləğvi üçün əsasdır.".

8. 166-cı maddə üzrə:

8.1. 166.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"166.1. Doğum bu barədə məlumat verən şəxsin seçdiyi, doğum faktı məhkəmə qaydasında müəyyən edildikdə isə məhkəmə qətnaməsinin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.";

8.2. 166.2-ci maddədən "müvafiq icra hakimiyyəti orqanına" sözləri çıxarılsın;

8.3. aşağıdakı məzmunda 166.2-1-ci maddə əlavə edilsin:

"166.2-1. Doğum faktının müəyyən edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron

imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

9. 186-cı maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 186. Atalığın müəyyən edilməsinin dövlət qeydiyyatına alındığı yer

Ərizə əsasında atalığın müəyyən edilməsi valideynlərin seçdiyi, atalıq məhkəmə tərəfindən müəyyən edildikdə isə məhkəmə qətnaməsinin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.".

10. Aşağıdakı məzmunda 187.1-1-ci maddə əlavə edilsin:

"187.1-1. Atalığın müəyyən edilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.".

11. 193 - 195-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"Maddə 193. Ölümün dövlət qeydiyyatına alındığı yer

Ölüm bu barədə məlumat verən şəxsin seçdiyi, ölüm faktı məhkəmə tərəfindən müəyyən edildikdə və ya şəxs ölmüş elan edildikdə isə məhkəmə qətnaməsinin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.

Maddə 194. Ölüm haqqında məlumat vermə

194.1. Ölüm haqqında məlumat tibb müəssisəsi tərəfindən dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən isə həmin gün informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.

194.2. Ölüm faktının müəyyən olunması və ya şəxsin ölmüş elan edilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.

194.3. Ölüm haqqında məlumatın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə tibb müəssisəsi, həmin məlumatın informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

Maddə 195. Ölümün dövlət qeydiyyatına alınması qaydası

195.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Azərbaycan Respublikasının ərazisində ölmüş şəxsin ölümünü informasiya sisteminə ötürülmüş məlumat əsasında həmin məlumatın ötürüldüyü iş günü ərzində dövlət qeydiyyatına alır.

195.2. Azərbaycan Respublikası vətəndaşının, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin və ya əcnəbinin xarici ölkədə öldüyü və ölüm həmin ölkənin səlahiyyətli orqanlarında və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) qeydə alınmadığı hallarda ölümün qeydiyyatı bu ölkədə verilmiş ölüm faktını təsdiq edən tibbi sənəd əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*
*N 464-VIQD*

## Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, N 17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 11, maddə 687; 2004, N 7, maddə 505; 2006, N 3, maddə 223; 2010, N 11, maddə 936; 2013, N 5, maddə 464; 2014, N 11, maddə 1334; 2015, N 10, maddə 1083; 2018, N 6, maddə 1189; 2019, N 3, maddə 386, N 5, maddə 794, N 8, maddə 1360, N 11, maddə 1681) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nin 41-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. birinci hissədə "Respublikası qanunvericiliyinə əsasən" sözləri "Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq" sözləri ilə, "aktlarını qeydə alır" sözləri "aktlarının dövlət qeydiyyatını, o cümlədən doğumun, atalığın müəyyən edilməsinin və ölümün elektron qaydada dövlət qeydiyyatını həyata keçirir" sözləri ilə əvəz edilsin.

2. ikinci hissədə "aktlarının qeydlərində dəyişikliklər, düzəlişlər və əlavələr" sözləri "akt qeydində dəyişikliklər" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 27 dekabr 2021-ci il*

*N 465-VIQD*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2006-cı il 18 aprel tarixli 391 nömrəli, "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2007-ci il 26 fevral tarixli 532 nömrəli və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323, N 12, maddə 1034; 2007, N 11, maddə 1105, N 12, maddə 1246; 2009, N 7, maddə 533, N 8, maddə 627, N 10, maddə 773, N 12, maddələr 983, 988; 2010, N 2, maddə 83, N 4, maddə 292, N 11, maddə 966; 2011, N 1, maddə 18, N 2, maddə 85, N 4, maddə 281, N 6, maddə 497, N 10, maddə 894, N 11, maddə 993; 2012, N 10, maddə 950; 2014, N 6, maddə

627, N 7, maddə 820, N 9, maddə 1029; 2016, N 1, maddə 77; 2017, N 2, maddə 184, N 10, maddə 1784; 2018, N 6, maddə 1205, N 7 (I kitab), maddə 1480; 2019, N 3, maddə 431, N 5, maddə 860, N 6, maddə 1044, N 12, maddə 1927; 2020, N 7, maddə 882; 2021, N 5, maddə 439) 9.9-cu bəndinə "qeydiyyatının" sözündən sonra ", o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq elektron qaydada" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 2, maddə 98; 2009, N 2, maddə 59; 2010, N 11, maddə 968; 2012, N 11, maddə 1107; 2013, N 10, maddə 1153; 2014, N 9, maddə 1058; 2015, N 6, maddə 701; 2016, N 2 (II kitab), maddə 272; 2018, N 5, maddə 925, N 8, maddə 1687) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin 14.13-cü bəndinə "qeydiyyatını" sözündən sonra "(o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq elektron qaydada)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 6, maddə 542; 2013, N 1, maddə 29, N 2, maddə 117, N 3, maddə 246, N 8, maddə 909, N 10, maddə 1155, N 12, maddə 1514; 2014, N 5, maddələr 477, 487, N 9, maddə 1027, N 12, maddə 1577; 2015, N 3, maddə 271, N 9, maddə 1005, N 11, maddə 1322, N 12, maddə 1448; 2016, N 2 (II kitab), maddə 273, N 5, maddələr 859, 864, N 8, maddə 1384, N 9, maddə 1464, N 10, maddə 1647, N 11, maddə 1835; 2017, N 3, maddə 353, N 4, maddə 545, N 5, maddə 807, N 8, maddə 1521, N 10, maddə 1797; 2018, N 2, maddələr 191, 215, N 3, maddə 427, N 4, maddə 659, N 7 (I kitab), maddə 1462, N 10, maddə 2017, N 12 (I kitab), maddələr 2538, 2596; 2019, N 3, maddə 406, N 4, maddə 655, N 5, maddələr 820, 826, 848, 852, 857, N 6, maddə 1037, N 12, maddə 1936; 2020, N 1, maddə 7, N 8, maddə 1039; 2020, N 10, maddə 1247; 2021, N 1, maddələr 16, 36, N 6 (I kitab), maddə 567, N 11, maddə 1211; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 dekabr tarixli 1502 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 5.2-ci bəndinə "qeydiyyatını" sözündən sonra "(o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq elektron qaydada)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 31 yanvar 2022-ci il*

*N 1582*

## Azərbaycan Respublikası Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinin şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Kons-

titusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi S.Miriyevanın və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri A.Vəliyevin, mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri S.Hacıyevin mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor A.Qasımovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Əmək Məcəlləsinin (bundan sonra - Əmək Məcəlləsi) 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 63-cü maddəsi baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, İ.Hüseynov "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinə (bundan sonra - "BakuBus" MMC) qarşı işə bərpa, ödənilməmiş əmək haqqı, mükafat, son haqq-hesab, istifadə edilməmiş məzuniyyət pulu, maddi və mənəvi ziyan tələbinə dair iddia ərizəsi ilə Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinə müraciət etmişdir.

Məhkəmə araşdırması gedişində müəyyən edilmişdir ki, "BakuBus" MMC-nin sürücüsü olmuş İ.Hüseynov 4 noyabr 2016-cı il tarixində idarə etdiyi avtobusla xidməti vəzifəsini icra edən zaman piyadanın ölümü ilə nəticələnən yol nəqliyyat hadisəsini törətmişdir. Həmin fakt üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263.2-ci maddəsi ilə cinayət işi başlanılmış, 14 yanvar 2017-ci il tarixində İ.Hüseynov təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilmişdir. İş üzrə ibtidai istintaq orqanının səlahiyyətli şəxsinin 12 dekabr 2020-ci il tarixli qərarı ilə cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verilmişdir.

Cinayət işinin istintaqı gedişində cavabdeh "BakuBus" MMC Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinə istinad edərək, cinayət tərkibi olan ictimai-təhlükəli əməl törətməsi ilə bağlı barəsində istintaq getməsinə əsaslanaraq, 1 mart 2017-ci il tarixli əmrlə İ.Hüseynovu işdən kənarlaşdırmışdır.

Müraciətdə qeyd olunur ki, Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinə əsasən, iş vaxtı ərzində işçi bilavasitə iş yerində müvafiq səlahiyyətli orqanın qərarı ilə təsdiqlənən inzibati xətaları və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməllər törətdikdə işəgötürən mülkiyyətçinin və işçilərin mənafeyini qorumaq, baş verə biləcək əməyin mühafizəsi qaydalarının pozulmasının qarşısını almaq və əmək intizamını təmin etmək məqsədi ilə işçini müvafiq iş vaxtı ərzində işdən kənar edə bilər.

Həmin maddədən görünür ki, işçinin məhz iş vaxtı ərzində inzibati xətaları və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməllər törətməsi onun işdən kənarlaşdırılmasının əsaslarından biri kimi çıxış edir. Eyni zamanda, bu əməllərin törədilməsinin müvafiq səlahiyyətli orqanın qərarı ilə təsdiqlənməli olduğu ifadə edilmişdir. Lakin qanunvericinin "müvafiq səlahiyyətli orqanın qərarı" dedikdə məhz hansı orqanı və qərarı nəzərdə tutması göstərilməmişdir. Bu isə işçinin yuxarıda qeyd edilmiş əsasla işdən kənarlaşdırılmasının qanuni olub-olmamasının məhkəmə tərəfindən müəyyən edilməsində qeyri-müəyyənlik yaradır.

Müraciətedənin qənaətinə görə, həmin maddədə "müvafiq səlahiyyətli orqan" dedikdə, ibtidai araşdırma orqanı nəzərdə tutulursa, bu zaman "müvafiq səlahiyyətli orqanın qərarı" dedikdə, şəxsin şübhəli şəxs qismində tanınmasının və ya təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarın yaxud ittiham aktının tərtib edilməsinin nəzərdə tutulduğu müəyyən edilməlidir.

Lakin "müvafiq səlahiyyətli orqan" dedikdə, məhkəmə nəzərdə tutulursa, bu halda "müvafiq səlahiyyətli orqanın qərarı" şəxsin təqsirli bilinməsinə dair məhkəmənin qanuni qüvvəyə minmiş hökmünü ifadə edir.

Müraciətedən həmçinin qeyd edir ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) 154.2-ci maddəsinə uyğun olaraq, zərurət olarsa ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı ilə məhkəmə tərəfindən şübhəli və ya təqsirləndirilən şəxs barəsində vəzifədən kənarlaşdırma qismində qətimkan tədbiri seçilə bilər. Prosessual qanunvericilikdə iş üzrə ibtidai istintaqın aparıldığı dövrdə şübhəli və ya təqsirləndirilən şəxsin vəzifədən kənarlaşdırılması barədə ayrıca qətimkan tədbiri nəzərdə tutulduğu halda, heç bir məcburiyyət olmadan işəgötürənin ibtidai istintaq dövründə işçini işdən kənarlaşdırmasının qanuniliyi sual doğurur.

Göstərilənləri nəzərə alaraq, müraciətedən şəxslərin əmək hüquqlarının müdafiəsinin, hüquq tətbiqetmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədi ilə Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinin şərh edilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət etmək qərarına gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd edir.

Əmək hüququ insanların digər konstitusiya hüquqlarının həyata keçirilməsinə təsir göstərə biləcək amillərdən biri olmaqla, insanın ləyaqəti və özünü cəmiyyətdə fərd kimi dərk etməsi üçün önəmlidir.

Konstitusiyanın 35-ci maddəsinə əsasən, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Əmək müqavilələri sərbəst bağlanır, heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

Əksər hüquqlara münasibətdə olduğu kimi, əmək hüququ da mütləq və məhdudlaşdırılmaya məruz qala bilməyən hüquq kimi qəbul edilə bilməz.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinin şərh edilməsinə dair" 2005-ci il 21 oktyabr tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə görə, dövlətin və insanın vətəndaşların və digər şəxslərin hüquq və azadlıqlarına qəsd etməmək vəzifəsi hüquqların məhdudlaşdırılması kimi qəbul edilir. Dövlət tərəfindən insan hüquqlarının qanuni məhdudlaşdırılması digər subyektlərin hüquqlarına özbaşına münasibətə sədd qoymaq məqsədinə yönəlmişdir.

Hüquqi dövlətdə insan hüquqlarının məhdudlaşdırılması yalnız qanun əsasında mümkündür. Bu prinsip "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda da öz əksini tapmışdır. Belə ki, həmin Konstitusiya Qanununun 3.1 və 3.4-cü maddələrinə əsasən, Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquqları və azadlıqları yalnız qanunla məhdudlaşdırıla bilər. İnsan hüquqlarına və ya azadlıqlarına qoyulan məhdudiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır.

İnsan hüquqlarının məhdudlaşdırılmasının qanuniliyinə, mütənasibliyinə və ədalətliliyinə nəzarəti isə məhkəmələr həyata keçirirlər. Qanunverici hüququn məhdudlaşdırılmasının hüquqi qaydasını və əsaslarını müəyyən etməklə, dövlətin ədalət mühakiməsi yolu ilə cəmiyyət üçün əhəmiyyət kəsb edən dəyərlərinin mühafizə edilməsi və hər bir

şəxsin hüquq və azadlıqlarının təmin edilməsi arasında yarana biləcək kolliziyaları həll etmiş olur.

Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında qanunverici tərəfindən hər hansı ictimai münasibətlərin tənzimlənməsinə dair normativ hüquqi aktlar qəbul edilərkən hüquqi müəyyənlik prinsipinə riayət edilməsinin vacibliyini vurğulamışdır. Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarının müdafiə ediləcəyinə, hüquq tətbiqedənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir. Bunun əksi, yəni hüquq normasının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmədə məhdudiyyətsiz mülahizə üçün imkan yaratmaqla, hər bir normativ hüquqi aktın əsasında dayanmalı olan qanunun aliliyi, qanun və məhkəmə qarşısında bərabərlik və ədalət prinsiplərinin pozulmasına gətirib çıxara bilər ("Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 180.3-cü maddəsinin müddəalarının şərh edilməsinə dair" 22 sentyabr 2008-ci il tarixli və "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2 aprel 2012-ci il tarixli Qərarlar).

Konstitusiya Məhkəməsinin Plenumu Klark Qordon Morrisin şikayəti üzrə 2017-ci il 26 may tarixli Qərarında qanunun aydın olması tələbi ilə bağlı qeyd etmişdir ki, qanunun aydın və proqnozlaşdırıla bilən olması hüquqi dövlətin vacib təzahürlərindən biri olan qanunun ümumiliyini təmin etmək zərurəti ilə uzlaşmalıdır. Nəzərə almaq lazımdır ki, qanunun mətninin mütləq aydınlığı (qanunvericinin bütün mümkün ola biləcək həyati halları qanunda nəzərdə tutması) qeyri-realdır. Bu səbəbdən qanunda ümumi anlayışlardan istifadə edilməsi qaçılmazdır.

Bu baxımdan, hüquqi normaların bəzən qaçılmaz olan natamamlığı və ya qeyri-müəyyənliyi məhz məhkəmə təcrübəsi vasitəsi ilə aradan qaldırılır (Konstitusiya Məhkəməsi Plenumunun R.Cəfərovun şikayəti üzrə 2012-ci il 18 may tarixli Qərarı).

Bu zaman məhkəmə təcrübəsində normativ hüquqi aktların müddəaları onların konstitusiya hüquqi mənasına uyğun tətbiq olunmalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "M.Məmmədovun şikayəti əsasında Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 55-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 2014-cü il 29 aprel tarixli Qərarı).

Fiziki şəxslərin əməyə olan qabiliyyətlərinin tətbiqi ilə bağlı yaranan əmək münasibətlərini tənzimləyən əsas normativ hüquqi akt Əmək Məcəlləsidir. Bu Məcəllə müvafiq hüquq normaları ilə əmək münasibətlərində işçilərin və işəgötürənlərin əmək, sosial, iqtisadi hüquqları və bu hüquqlarla bağlı müvafiq təminatların minimum səviyyəsini və s. müəyyən edir.

Qeyd olunduğu kimi, Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinə əsasən, iş vaxtı ərzində işçi bilavasitə iş yerində müvafiq səlahiyyətli orqanın qərarı ilə təsdiqlənən inzibati xətaları və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməllər törətdikdə işəgötürən mülkiyyətçinin və işçilərin mənafeyini qorumaq, baş verə biləcək əməyin mühafizəsi qaydalarının pozulmasının qarşısını almaq və əmək intizamını təmin etmək məqsədi ilə işçini müvafiq iş vaxtı ərzində işdən kənar edə bilər.

Maddənin məzmunundan da anlaşıldığı kimi, qanunvericiliklə nəzərdə tutulmuş hallarda işəgötürən tərəfindən işçinin işdən kənar edilməsi müvəqqəti xarakter daşıyır və işçinin əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyalarını (vəzifələrini) yerinə yetirmək imkanından müvafiq iş vaxtı ərzində məhrum edilməsini ehtiva edir. Qanunverici işəgötürənə bu səlahiyyəti aşağıdakı məqsədlərə nail olmaq üçün vermişdir:

- mülkiyyətçinin və işçilərin mənafeyini qorumaq;

- baş verə biləcək əməyin mühafizəsi qaydalarının pozulmasının qarşısını almaq;

- əmək intizamını təmin etmək.

Göründüyü kimi, işçinin işdən kənar edilməsi intizam tənbeh tədbiri və ya cəza xarakteri daşımır. Məqsədi işçinin əmək funksiyalarının yerinə yetirilməsinin davam etdirilməsi nəticəsində yarana biləcək əlverişsiz halların, mümkün ziyanın qarşısını almaqdır.

Qanunverici Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndi ilə işçinin işdən kənar edilməsi üçün aşağıdakı şərtləri də müəyyən etmişdir:

- işçi inzibati xətaları və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməlləri iş vaxtı ərzində törətməli;

- işçi inzibati xətaları və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməlləri bilavasitə iş yerində törətməli;

- işçinin inzibati xətaları və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməlləri törətməsi müvafiq səlahiyyətli orqanın qərarı ilə təsdiq edilməlidir.

Müraciətdən göründüyü kimi, qeyd olunan normanın tətbiqi zamanı mübahisə doğuran məqamlar işçinin işdən kənarlaşdırılması üçün inzibati xətaları və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməlləri törətməsinin hansı orqanın qərarı ilə təsdiq edilməli olması, habelə bu orqan ibtidai araşdırma orqanı olduğu təqdirdə həmin orqanın məhz hansı qərarının olması ilə bağlıdır.

Bununla bağlı, ilk növbədə, qeyd olunmalıdır ki, Konstitusiyanın 63-cü maddəsinə əsasən, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır. Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz.

Təqsirsizlik prezumpsiyası həmçinin Cinayət-Prosessual Məcəlləsinin 21-ci maddəsində də öz əksini tapmışdır. Belə ki, həmin maddəyə əsasən, cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetirilməyibsə və bu barədə qanuni qüvvəyə minmiş məhkəmənin hökmü yoxdursa, təqsirsiz sayılır. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - İnzibati Xətalar Məcəlləsi) 8-ci maddəsinə müvafiq olaraq, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetmədikdə və bu, inzibati xəta haqqında iş üzrə icraata baxmış hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qüvvəyə minmiş qərarı ilə müəyyən edilmədikdə o, təqsirsiz hesab edilir.

Beləliklə, sadalanan normaların məzmunundan aydın olur ki, şəxsin cinayət əməlinin və ya inzibati xətanın törədilməsində təqsirli olub-olmaması məsələsi qanuni qüvvəyə minmiş məhkəmə hökmü (qərarı) və ya səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı ilə təsdiq olunmalıdır.

Lakin Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndində işçinin işdən kənar edilməsi kimi müvəqqəti xarakterli preventiv tədbirin tətbiqinin şəxsin təqsirliliyinə dair qanuni qüvvəyə minmiş məhkəmə qərarı (həmçinin inzibati xətalara dair işlər üzrə səlahiyyətli dövlət orqanının (vəzifəli şəxsin) qərarı) ilə şərtləndirilməsi qanunverici tərəfindən həmin maddədə nəzərdə tutulmuş məqsədlərlə uyğunsuzluq təşkil edir. Belə ki, yuxarıda da qeyd olunduğu kimi, işçinin işdən kənar edilməsi müvəqqəti xarakterli tədbir olmaqla tətbiqində qanunvericinin məqsədi qısa müddətə baş verə biləcək əməyin mühafizəsi qaydalarının pozulmasının qarşısını almaq, əmək intizamını təmin etmək və bununla da mülkiyyətçinin və işçilərin mənafeyini qorumaqdan ibarətdir.

Odur ki, qanunvericinin göstərilən məqsədlərindən çıxış edərək Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, işçinin işdən müvəqqəti kənarlaşdırılması onun barəsində məhkəmənin və ya səlahiyyətli dövlət orqanının (vəzifəli şəxsin) qərarı qanuni qüvvəyə minənədək və yaxud cinayət təqibinə və ya inzibati xəta haqqında iş üzrə icraata xitam verilənədək, yəni işçinin işdən

müvəqqəti kənarlaşdırılmasına səbəb olmuş cinayət əməli və ya inzibati xəta üzrə məsələnin qəti şəkildə həll edilməsinədək tətbiq edilə bilər. Müvəqqəti xarakterli tədbirin işin tam həllindən, yəni məhkəmənin və ya səlahiyyətli dövlət orqanının (vəzifəli şəxsin) qərarının qanuni qüvvəyə minməsindən sonra şəxs barəsində tətbiqi isə lüzumsuz xarakter daşıyır.

O da qeyd edilməlidir ki, şəxs barəsində qanuni qüvvəyə minmiş məhkəmə qərarı (və ya inzibati xəta haqqında iş üzrə icraata baxmış hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qüvvəyə minmiş qərarı) bir sıra hallarda əmək müqaviləsinin xitamını şərtləndirir (məsələn, Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-ci hissəsinin "ç" bəndi, İnzibati Xətalar Məcəlləsinin 29-cu maddəsi və s.).

Nəzərə alınmalıdır ki, cinayət-prosessual qanunvericiliyində cinayət mühakimə icraatının əsas məqsədlərinə nail olmaq üçün müəyyən qətimkan tədbirlərinin tətbiqi nəzərdə tutulmuşdur. Cinayət-Prosessual Məcəlləsinin 154.2-ci maddəsində sadalanan qətimkan tədbirləri preventiv xarakter daşıyırlar və məqsədləri bir çox hallarda tətbiq olunduqları şəxslərin gələcəkdəki real və ehtimal olunan qanunazidd fəaliyyətinin qarşısını almaqdan ibarətdir.

Cinayət-Prosessual Məcəlləsinin 154.2.10-cu maddəsində vəzifədən kənarlaşdırma növündə qətimkan tədbiri müəyyən edilmişdir. Həmçinin Məcəllənin 154.4-cü maddəsində qeyd edilmişdir ki, bu Məcəllənin 154.2.1-154.2.9-cu maddələrində nəzərdə tutulmuş qətimkan tədbirləri əsas qətimkan tədbirləridir və biri digəri ilə birlikdə seçilə bilməz. Vəzifədən kənarlaşdırma həm əsas qətimkan tədbiri qismində, həm də digər qətimkan tədbirlərindən birinə əlavə kimi seçilə bilər.

Cinayət-Prosessual Məcəlləsinin 156.2-ci maddəsinə əsasən, həbs və vəzifədən kənarlaşdırma müstəntiqin vəsatəti əsasında və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı, habelə cinayət işinə baxan məhkəmənin öz təşəbbüsü ilə və yalnız məhkəmənin qərarına əsasən seçilə bilər.

Cinayət-Prosessual Məcəlləsinin 172.1 və 172.2-ci maddələrinə əsasən, vəzifədən kənarlaşdırma qətimkan tədbiri qismində şübhəli və ya təqsirləndirilən şəxsin öz vəzifə səlahiyyətlərini icra etməsinə, yerinə yetirdiyi işi, yaxud məşğul olduğu fəaliyyəti davam etdirməsinə qadağan qoyulmasından ibarətdir. Şübhəli və ya təqsirləndirilən şəxs barəsində vəzifədən kənarlaşdırma qismində qətimkan tədbirinin seçilməsi üçün kifayət qədər əsaslar olduqda, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror göstərilən şəxsə 3 (üç) gün müddətində vəzifə səlahiyyətlərini icra etməyi, yerinə yetirdiyi işi, yaxud məşğul olduğu fəaliyyəti davam etdirməyi əsaslandırılmış qərarı ilə qadağan edə bilər. Eyni vaxtda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəməyə şübhəli və ya təqsirləndirilən şəxs barəsində vəzifədən kənarlaşdırma qismində qətimkan tədbirinin seçilməsi barədə təqdimat göndərir.

Həmçinin həmin Məcəllənin 172.3-cü maddəsində qeyd olunur ki, vəzifədən kənarlaşdırma qismində qətimkan tədbirinin seçilməsi barədə məhkəmə qərarının surəti dərhal icra edilməsi üçün şübhəli və ya təqsirləndirilən şəxsin iş yerinin müdiriyyətinə göndərilir və o, qərarın surətini aldığı andan şübhəli və ya təqsirləndirilən şəxsin qadağan edilmiş işlə məşğul olmasına, yaxud fəaliyyətini həyata keçirməsinə imkan verməyə haqlı deyil.

Göründüyü kimi, Cinayət-Prosessual Məcəlləsinin normaları əsasında şəxs barəsində vəzifədən kənarlaşdırma qətimkan tədbiri seçildiyi halda bununla bağlı qəbul edilmiş qərarın icrası işəgötürənin vəzifəsi kimi çıxış edir. Bundan fərqli olaraq, Əmək Məcəlləsinin 62-ci maddəsi üzrə işçinin işdən kənarlaşdırılması işəgötürənin hüququnu təşkil edir. Cinayət-prosessual qanunvericiliyində vəzifədən kənarlaşdırma qətimkan tədbirinin tətbiqi üçün ilkin şərt kimi şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanınması faktı çıxış etdiyinə görə, məntiqi zərurət olaraq işəgötürənin öz təşəbbüsü ilə işçini cinayət tərkibi olan ictimai-təhlükəli əməllər törətməsi əsası ilə işdən kənarlaşdırması üçün cinayət prosesini həyata keçirən orqanın

şübhəli şəxs qismində tanınma və ya təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarının olması zəruridir.

Buna müvafiq olaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndində şəxsin inzibati xətalar törətməsini təsdiqləyən müvafiq səlahiyyətli orqanın qərarı dedikdə, İnzibati Xətalar Məcəlləsinin 99.4-cü maddəsinə uyğun olaraq qəbul edilmiş inzibati xəta haqqında iş üzrə icraatın başlanması barədə müvafiq akt (protokol, qərardad və ya qərar) başa düşülür.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndində müvafiq səlahiyyətli orqanın qərarı dedikdə, cinayət mühakimə icraatı üzrə şəxsin şübhəli şəxs qismində tanınması və ya təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar, inzibati xətalara dair işlər üzrə icraatda isə inzibati xəta haqqında iş üzrə icraatın başlanması barədə müvafiq akt nəzərdə tutulur.

Nəzəriyyədə bir çox hallarda Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndində şəxsin cinayət tərkibi olan ictimai-təhlükəli əməllər törətməsini təsdiqləyən müvafiq səlahiyyətli orqanın qərarı, məhz Cinayət-Prosessual Məcəlləsinin 154.2-ci maddəsində nəzərdə tutulmuş vəzifədən kənarlaşdırma qətimkan tədbirinin seçilməsi ilə əlaqələndirilir. Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu göstərir ki, şübhəli və ya təqsirləndirilən şəxs barəsində məhz hansı qətimkan tədbirinin tətbiqi məsələsi cinayət-prosessual qanunvericiliyində müəyyən olunmuş hallar nəzərə alınmaqla ibtidai araşdırma orqanının və ya məhkəmənin mülahizəsinə əsasən həll edilir. Odur ki, ibtidai araşdırma orqanı və ya məhkəmə vəzifədən kənarlaşdırma deyil, hər hansı digər qətimkan tədbirinin seçilməsini məqsədəmüvafiq hesab etdiyi təqdirdə, iş yerində mülkiyyətçinin və işçilərin mənafeyini qorumaq, əməyin mühafizəsi qaydalarının pozulmasının qarşısını almaq, əmək intizamını təmin etmək zərurəti yarana bilər. Bu halda sağlam və təhlükəsiz əmək şəraitinin təmin olunmasına məsul olan işəgötürən özünün əsaslandırılmış qərarı ilə işçini əmək funksiyalarının icrasından müvəqqəti olaraq kənarlaşdırmaqda haqlıdır. Bu Əmək Məcəlləsinin şərh edilən maddəsinin hərfi mənasından da irəli gəlir. Belə ki, həmin maddədə işçinin işdən kənarlaşdırılması işəgötürənin vəzifəsi kimi deyil, məhz hüququ kimi göstərilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu Əmək Məcəlləsinin 62-ci maddəsinin 2-ci hissəsinə əsaslanmaqla vurğulayır ki, işçinin işdən kənar edilməsi hər bir konkret halda müvafiq sübutlar (həkim rəyi, işçilərin izahatları, arayışlar və digər rəsmi sənədlər) toplanaraq sənədləşdirilməli, işəgötürənin bu barədə qərarının zəruriliyi əsaslandırılmalı və əsaslandırma ümumi xarakter daşımamalıdır. Belə ki, bu tədbir işçi barəsində əmək haqqı ödənişinin dayandırılması, əmək funksiyalarının yerinə yetirilməsi imkanından məhrum etmə kimi əlverişsiz nəticələrə səbəb olduğundan, yalnız ictimai (müəssisə və cəmiyyət üçün zərərli və təhlükəli nəticələrin qarşısını almaq) və şəxsi (işçilərin həyat və sağlamlığını qorumaq) mənafelərin müdafiəsi məqsədi ilə qanunvericilikdə nəzərdə tutulmuş müstəsna hallarda tətbiq edilə bilər. Eləcə də, işçinin işdən kənarlaşdırılmasının zəruriliyi aradan qalxdıqda işəgötürən işçinin işdən kənarlaşdırılması barədə qərarını ləğv etməlidir. İşçi bu tədbirin tətbiqi zərurəti aradan qalxdıqda məsələnin qəti həllinə qədər özünün əmək funksiyalarının yerinə yetirilməsinə qaytarılmağı tələb etməkdə haqlıdır.

İşçinin işdən kənar edilməsi müvəqqəti xarakter daşıdığından bu qərar yalnız ibtidai araşdırma və məhkəmə baxışı müddətində, habelə inzibati xəta haqqında iş üzrə icraatın gedişində qüvvədə olur. Araşdırma bitib şübhəli və ya təqsirləndirilən şəxs barəsində cinayət təqibinə xitam verildikdən və ya təyin olunmuş cəza icraya yönəldikdən, habelə inzibati xəta haqqında iş üzrə yekun akt qəbul edildikdən sonra işçinin işdən kənarlaşdırılması barədə işəgötürənin qərarı qüvvəsini itirir.

Həmçinin Əmək Məcəlləsinin 62-ci maddəsinin 5-ci

hissəsinə görə, işdən kənar edilməsini işəgötürənin və ya başqa vəzifəli şəxslərin ona qarşı qərəzli münasibətinə, saxta sənədlər əsasında həyata keçirildiyinə və digər faktlara görə qanunsuz və əsassız hesab edən işçi pozulmuş hüquqlarının bərpa edilməsi, şərəf və ləyaqətinin müdafiə olunması üçün məhkəməyə müraciət edə bilər.

Nəzərə alınmalıdır ki, cinayət-prosessual qanunvericiliyində müəyyən edilmiş bəraətverici əsaslarla barəsində cinayət təqibinə xitam verilmiş, habelə barəsində inzibati xəta haqqında iş üzrə icraata xitam verilmiş və s. şəxslərin müvafiq orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququ nəzərdə tutulmuşdur.

"Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbarbaycan Respublikası Qanununun 5-ci maddəsində ödənilməli olan ziyana həm də şəxsin məhrum olduğu əmək haqqı, pensiya, müavinət və başqa gəlirlər aid edilmişdir. Həmin Qanunun 6-cı maddəsində göstərilmişdir ki, bu Qanunun 5-ci maddəsində nəzərdə tutulmuş hallarda vurulmuş ziyanın ödənilməsi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinə uyğun olaraq, işəgötürən mülkiyyətçinin və işçilərin mənafeyini qorumaq, baş verə biləcək əməyin mühafizəsi qaydalarının pozulmasının qarşısını almaq və əmək intizamını təmin etmək məqsədi ilə bilavasitə iş yerində və iş vaxtı ərzində baş vermiş cinayət tərkibi olan ictimai-təhlükəli əməllərə və ya inzibati xətalara görə işçini aşağıdakı hallarda özünün əsaslandırılmış qərarı ilə işdən kənar edə bilər:

a) Cinayət-Prosessual Məcəlləsinin 90 və 91-ci maddələrinə müvafiq olaraq, şübhəli şəxs qismində tanınma və ya təqsirləndirilən şəxs qismində cəlb etmə barədə cinayət prosesini həyata keçirən orqanın qərarı olduqda;

b) İnzibati Xətalar Məcəlləsinin 99.4-cü maddəsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraatın başlanması barədə müvafiq akt qəbul edildikdə.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 62-ci maddəsinin 1-ci hissəsinin "c" bəndinə uyğun olaraq, işəgötürən mülkiyyətçinin və işçilərin mənafeyini qorumaq, baş verə biləcək əməyin mühafizəsi qaydalarının pozulmasının qarşısını almaq və əmək intizamını təmin etmək məqsədi ilə bilavasitə iş yerində və iş vaxtı ərzində baş vermiş cinayət tərkibi olan ictimai-təhlükəli əməllərə və ya inzibati xətalara görə işçini aşağıdakı hallarda özünün əsaslandırılmış qərarı ilə işdən kənar edə bilər:

a) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 90 və 91-ci maddələrinə müvafiq olaraq, şübhəli şəxs qismində tanınma və ya təqsirləndirilən şəxs qismində cəlb etmə barədə cinayət prosesini həyata keçirən orqanın qərarı olduqda;

b) Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 99.4-cü maddəsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraatın başlanması barədə müvafiq akt qəbul edildikdə.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

3. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 12 yanvar 2022-ci il*

## Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 100, 101-ci maddələri və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 53.1.5-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 100, 101-ci maddələri və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 53.1.5-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyidin və mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının müdiri F.Abbasovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) ünvanladığı sorğuda Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 128-ci maddəsinin "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Məhkəmələr və hakimlər haqqında" Qanun) 100, 101-ci maddələri və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) 53.1.5-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, qüvvədə olan qanunvericilikdə hakimlərin toxunulmazlığını müəyyən edən hüquqi müddəalar ümumi xarakter daşıyır və hakimlərin toxunulmazlığının sərhədləri müddət baxımından qeyri-müəyyəndir. Belə ki, həm cinayət başında yaxalanma zamanı, həm də digər hallarda hakim barəsində cinayət təqibinin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının (bundan sonra - Məhkəmə-Hüquq Şurası) razılığının alın-

ması tələb olunur.

Bundan əlavə, Cinayət-Prosessual Məcəlləsinin 53.1.5-ci maddəsinə müvafiq olaraq, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində təqib olunan şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi və ya xarici dövlət tərəfindən verilməsi məsələsinin qanunla müəyyən olunmuş qaydada qoyulması cinayət təqibi üzrə icraatın dayandırılması əsaslarına aid edilmişdir. Məcəllənin 53.3.4-cü maddəsinə əsasən, şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı cinayət təqibi üzrə icraatın dayandırılmasına əsasdır. Cinayət-Prosessual Məcəlləsinin 53.6-cı maddəsinə əsasən, icraatın dayandırılmasına əsas verən səbəblər aradan qalxanadək cinayət təqibi üzrə icraat dayandırılmış qalır. Bu səbəblər aradan qalxdıqdan sonra prokurorun, müstəntiqin və ya məhkəmənin qərarı ilə cinayət təqibi üzrə icraat təzələnir.

Sorğuverənin qənaətinə görə, hakimin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə Baş prokurorun təqdimatının təmin edilməməsi ilə əlaqədar icraatın dayandırılmasına əsas verən səbəbin aradan qalxmaması icraatın dayandırılmış olaraq qalması ilə nəticələnə bilər. Bu zaman iş üzrə icraatın təzələnməsi "Məhkəmələr və hakimlər haqqında" Qanunun 113-cü maddəsinə uyğun olaraq yalnız hakimin səlahiyyət müddətinin (uzadılmış səlahiyyət müddətinin) qurtarması, eləcə də səlahiyyətlərinə müvafiq əsaslarla vaxtından əvvəl xitam verilməsi hallarında (öz arzusu ilə vəzifəsindən çıxmaq barədə yazılı ərizə verdikdə, tutduğu vəzifə ilə bir araya sığmayan fəaliyyətlə məşğul olduqda, hakim vəzifəsinə namizədlər üçün müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə və s.) mümkün olacaqdır ki, belə olan halda səlahiyyətlərinə xitam verilmiş hakimin toxunulmazlıq hüququnun olduğu səlahiyyətli dövrü ərzində törətdiyi əmələ görə cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq cinayət təqibinin həyata keçirilməsi üçün Məhkəmə-Hüquq Şurasından müvafiq razılığın alınmalı olub-olmaması, yəni sözügedən Qanunun 101-ci maddəsində müəyyən edilmiş prosedurlara riayət edilib-edilməməsi ilə bağlı məsələ sual doğurur.

Sorğuverən hesab edir ki, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 101-ci maddəsinin mövcud redaksiyasının Cinayət-Prosessual Məcəlləsinin 53.1.5-ci maddəsinin düzgün tətbiqində yarada biləcəyi çətinliklər, habelə beynəlxalq təcrübənin öyrənilməsi və təhlil edilməsi nəticəsində müəyyən olunanlar nəzərə alınmaqla, hakimlərin toxunulmazlığının müddət sərhədlərinin, yəni səlahiyyət müddətinin bitməsi və ya digər əsaslara görə hakim vəzifəsində fəaliyyətinə xitam verilmiş şəxslər barəsində hakim vəzifəsində işlədikləri müddətdə törətdikləri əməllərə görə cinayət təqibinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi məqsədilə Konstitusiyanın 128-ci maddəsinin "Məhkəmələr və hakimlər haqqında" Qanunun 100, 101-ci maddələri və Cinayət-Prosessual Məcəlləsinin 53.1.5-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə zərurət vardır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə bağlı aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

Konstitusiyanın 127-ci maddəsinin I və III hissələrinə əsasən, hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir.

Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır (Konstitusiyanın 8-ci maddəsinin IV hissəsi).

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 8-ci maddəsinə görə, ədalət mühakiməsi hakimlərin müstəqilliyi təmin edilməklə, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, qərəzsiz, ədalətlə və qanunlara müvafiq həyata keçirilir.

Hakimlərin müstəqilliyi prinsipi bütövlükdə məhkəmə sisteminin müstəqilliyinin vacib elementi olmaqla, hakimiyyət bölgüsü, qanunun aliliyi, ədalət, insan hüquqlarının təmin edilməsi prinsiplərinin realizəsinə yönəlmiş mühüm təminatlardan biridir. Demokratik cəmiyyətdə məhkəmə haki-

miyyətinin müstəqilliyinin təsbit və təmin edilməsində dövlətin xüsusi publik marağı mövcud olur.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsi məhkəmənin hakimiyyətin digər qollarından, həmçinin tərəflərdən müstəqil olmasını tələb edir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra - Avropa Məhkəməsi) Campbell və Fell Birləşmiş Krallığa qarşı iş üzrə 1984-cü il 28 iyun tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən, məhkəmənin "müstəqil" olub-olmamasının müəyyən edilməsi üçün aşağıdakı meyarlar nəzərdən keçirilməlidir:

- hakimlərin təyin edilməsi qaydası və hakimlərin səlahiyyət müddəti;
- hakimlərə təzyiqlərin yolverilməzliyinə dair təminatların mövcudluğu;
- məhkəmənin zahiri müstəqilliyi.

"Hakimlərin davranışı üzrə Banqalor Prinsipləri"nin "Müstəqillik" adlanan bölməsinin preambulasına əsasən, məhkəmə orqanlarının müstəqilliyi qanunçuluğun və işin məhkəmədə ədalətli həll edilməsinin əsasını təşkil edir. Bu baxımdan, hakim məhkəmə orqanlarının müstəqilliyi prinsipini şəxsi və institusional aspektlərdə həyata keçirməlidir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 100-cü maddəsinin ikinci hissəsinə müvafiq olaraq, hakimlərin müstəqilliyi onların səlahiyyətli dövründə siyasətsizləşdirilməsi, dəyişilməzliyi və toxunulmazlığı ilə, vəzifəyə təyin olunmasının, məsuliyyətə cəlb edilməsinin, vəzifədən kənarlaşdırılmasının və səlahiyyətlərinə xitam verilməsinin məhdudlaşdırılması ilə, məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsi və ədalət mühakiməsinin qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilməsi ilə, məhkəmə icraatına hər hansı şəxs tərəfindən məhdudiyyət qoyulmasının və müdaxilə edilməsinin yolverilməzliyi ilə, hakimlərin şəxsi təhlükəsizliyinin təmin edilməsi yolu ilə həyata keçirilir və onlara vəzifələrinə uyğun maddi və sosial təminatlar verilir.

Ədalət mühakiməsinin publik hüquqi məqsədlərinin hakimlər tərəfindən realizə edilməsini nəzərə alaraq qanunverici onlara münasibətdə xüsusi təminatlar müəyyən edir. Digər şəxslərlə müqayisədə hakimə daha yüksək təminatları müəyyənləşdirməklə dövlət nəticə etibarilə hakimin fəaliyyətini xüsusi dəyərləndirir, məhkəmə hakimiyyətinin rolunu, müstəsna əhəmiyyətini və nüfuzunu etiraf edir.

Beləliklə, məhkəmənin müstəqilliyinin müstəsna publik əhəmiyyətinə xüsusi önəm verərək, qanunverici onun təmin olunmasının siyasi, iqtisadi və hüquqi mexanizmlərini müəyyən etmişdir.

Siyasi təminatlara hakimlərin heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməməsi, siyasi fəaliyyətlə məşğul və siyasi partiyalara üzv ola bilməməsi kimi qadağalar aiddir. Bununla məhkəmə qərarlarının hakimlərin siyasi baxışlarından və siyasi məqsədəmüvafiqlikdən müstəqilliyi təmin olunur.

İqtisadi təminatlara dövlət tərəfindən hakimlərin maddi və sosial təminatı məsələlərinin hakimin yüksək statusuna uyğun səviyyədə həll edilməsi aiddir.

Hüquqi təminatlara hakimlərin dəyişilməzliyi, təyin edilməsi, vəzifədən kənarlaşdırılması və səlahiyyətinə xitam verilməsinin xüsusi qaydaları, təhlükəsizliyi, intizam məsuliyyətinə cəlb edilməsinin qaydaları, toxunulmazlığı və s. aiddir.

Sorğuda qaldırılan məsələ məhkəmənin müstəqilliyinin hüquqi təminatı olan hakimlərin toxunulmazlığı ilə bağlı olduğundan, Konstitusiya Məhkəməsinin Plenumu bu təminatın bəzi xüsusiyyətlərini qeyd etməyi vacib hesab edir.

Qeyd olunduğu kimi, Konstitusiyanın 128-ci maddəsi ilə təsbit edilmiş hakimlərin toxunulmazlığı onların hüquqi statusunun və fəaliyyətlərinin vacib təminatlarından olmaqla, onları hər hansı təsir, təzyiq və təqiblərdən qorumaq məqsədini daşıyır.

Avropa Şurasının Nazirlər Komitəsinin "Hakimlər haqqında: müstəqillik, səmərəlilik və məsuliyyət" adlanan Tövsiyəsində qeyd edilmişdir ki, hakimlərin toxunulmazlığı onların maraqlarına xidmət edən bir üstünlük və ya imtiyaz deyil, qanunun aliliyinin təmin edilməsi, müstəqil və qərəzsiz ədalət mühakiməsini arzulayan şəxslərin maraqları naminə mövcud olan bir mexanizmdir.

Hakimlərin toxunulmazlığı

müxtəlif hüquq münasibətləri sahəsində realizə olunur ki, burada üç əsas istiqaməti qeyd etmək olar:

1. maddi-hüquqi toxunulmazlıq - hakimlərin mülki-hüquqi məsuliyyətinin hədlərinin müəyyən edilməsini;

2. funksional toxunulmazlıq - hakimlərin səlahiyyətləri çərçivəsində həyata keçirdikləri fəaliyyətə görə hüquqi məsuliyyətə cəlb edilməsinin yolverilməzliyini;

3. prosessual toxunulmazlıq - hakimin inzibati və cinayət məsuliyyətinə cəlb edilməsinin, qətimkan tədbirlərinin seçilməsinin, habelə hakimlər barəsində istintaq hərəkətlərinin aparılmasının xüsusi qaydalarını ehtiva edir.

Maddi-hüquqi toxunulmazlıq ilə əlaqədar qeyd edilməlidir ki, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 101-ci maddəsinin on birinci hissəsinə görə, məhkəmə səhvləri nəticəsində proses iştirakçısına, yaxud işdə iştirak edən şəxsə dəymiş ziyana görə hakimlər öz xüsusi əmlakları ilə məsuliyyət daşımırlar. Bu ziyan qanunla müəyyən olunmuş hallarda və qaydada dövlət tərəfindən ödənilir.

Birləşmiş Millətlər Təşkilatının 29 noyabr 1985-ci il tarixli 40/32 saylı Qətnaməsi ilə təsdiq edilmiş "Məhkəmə orqanlarının müstəqilliyinin əsas prinsiplərinin" 16-cı maddəsinə uyğun olaraq, daxili qanunvericilikdə hər hansı intizam qaydaları, şikayət etmək hüququ və ya dövlət tərəfindən kompensasiyanın ödənilməsi nəzərdə tutulmaqla, hakimlər öz vəzifə səlahiyyətlərini həyata keçirərkən yol verdikləri səhvlər nəticəsində yaranan maddi ziyana münasibətdə immunitetə malik olmalıdırlar.

Avropa Məhkəməsinin bir sıra qərarlarında ifadə edilən hüquqi mövqeyə əsasən, hakimlərin toxunulmazlığı ədalət mühakiməsinin lazımi səviyyədə həyata keçirilməsi kimi qanuni məqsəd daşıyır... Bu, imkan verir ki, hakimlər öz səlahiyyətlərini tam müstəqil, qərarların çıxarılması zamanı diskresiyaları ziyanın dəyməsi ilə nəticələnərsə məsuliyyətin yaranmasından qorxmayaraq həyata keçirsin. Nəhayət, bu, hakimlərə diqqətlərinin qərardan narazı qalan tərəflərin davamlı iddialarına yayındırmadan, vəzifələrinin icra edilməsinə yönəldilməsinə imkan verir (Gryaznov Rusiyaya qarşı iş üzrə 2012-ci il 12 iyun tarixli Qərar və s.)

Funksional toxunulmazlığa gəlincə, bu institut hakimin diskresiyasına görə, yəni işə baxılması nəticəsində gəldiyi nəticəyə və ifadə etdiyi mövqeyinə görə hüquqi məsuliyyətə cəlb edilməsini qadağan edir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunda hakimlərin funksional toxunulmazlığı ilə bağlı müddəa nəzərdə tutulmasa da, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Konstitusiya Məhkəməsi haqqında" Qanun) 16.10-cu maddəsinə görə, Konstitusiya Məhkəməsinin hakimi Konstitusiya Məhkəməsindəki fəaliyyətinə, səsverməyə, söylədiyi fikrə görə hüquqi məsuliyyətə cəlb oluna bilməz, ondan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Konstitusiyanın 128-ci maddəsi ilə təsbit olunmuş toxunulmazlıq bütün hakimlərə münasibətdə funksional toxunulmazlıq təminatını ehtiva edir və bu növ toxunulmazlıq hakimin səlahiyyətlərinə xitam verildikdən sonra da davam edir.

Əks yanaşma funksional toxunulmazlıq institutunun məqsəd və hüquqi funksiyasına zidd olmaqla, Konstitusiya və müvafiq qanunvericilik normaları ilə təsbit edilmiş təminatların "xəyali" xarakter daşımasına, nəticədə məhkəmə hakimiyyətinin müstəqilliyinə xələl gətirilməsinə səbəb ola bilər.

Belə ki, funksional toxunulmazlığın məqsədi hakimlər tərəfindən fəaliyyətləri çərçivəsində ifadə edilmiş mövqelərə görə gələcəkdə təqib olunmayacaqlarına güvənərək, hər hansı kənar təzyiqlərə məruz qalmadan, müstəqil, qərəzsiz və şəffaf qərarların qəbulunun təmin edilməsidir.

Bununla belə, hakimin biləbilə ədalətsiz qərar qəbul etməsi sübuta yetirilərsə (prosessual təminatlara əməl edilməsi şərti ilə), o cinayət məsuliyyətinə cəlb edilə bilər. Bu halda, hakim fəaliyyəti zamanı qərarlarında ifadə etdiyi mövqeyinə görə deyil, məhz belə qərarın qəbul edilməsi vaxtı törətdiyi cinayətkar əmələ görə məsuliyyətə cəlb olunur. Belə ki, bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarma Azərbaycan Respublikası Cinayət Məcəlləsinin

(bundan sonra - Cinayət Məcəlləsi) 295-ci maddəsinə əsasən cinayət məsuliyyətini yaradır.

Bununla əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etməyi zəruri hesab edir ki, Cinayət Məcəlləsinin 295-ci maddəsinin dispozisiyasında yer alan "bilə-bilə" ifadəsi həmin cinayət tərkibinin zəruri əlamətini təşkil edir və hakim ədalətsiz qərarın çıxarılmasına görə yalnız bunun qəsdən edildiyi sübut olunduğu təqdirdə cinayət məsuliyyəti daşıyır.

Belə yanaşma beynəlxalq sənədlərdə də ifadə edilmişdir. Belə ki, Avropa Şurasının Nazirlər Komitəsinin yuxarıda qeyd edilən Tövsiyəsinin 68-ci bəndinə əsasən, alçaq niyyətlə törədilən hallar istisna olmaqla, işə baxılarkən hakim tərəfindən qanunun şərhi, faktların və ya sübutların qiymətləndirilməsi cinayət məsuliyyətinə əsas ola bilməz.

Konstitusiya Məhkəməsinin Plenumu onu da xüsusilə vurğulayır ki, hakimlərin toxunulmazlığı onların cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş əməllərin törədilməsinə görə məsuliyyətdən azad edilməsi və ya cəzalandırılmamış qalmasının əsası kimi qiymətləndirilə bilməz. Burada məqsəd hakimlərin müstəqilliyinin təmin edilməsi üçün onların təzyiq və təsirlərdən müdafiə edilməsi ilə cəzanın qaçılmazlığı prinsipi (ubi culpa est, ibi poena subesse debet) arasında ədalətli balansın əldə olunmasıdır.

Məhz bu səbəbdən də qanunvericilikdə hakimin toxunulmazlığının götürülməsi ilə bağlı müvafiq qaydalar (prosessual toxunulmazlıq) nəzərdə tutulmuşdur. Hakimin prosessual toxunulmazlığından irəli gələn qaydalara riayət edilmədən onun barəsində cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş əmələ görə cinayət təqibinin həyata keçirilməsi yolverilməzdir.

Belə ki, Konstitusiyanın 128-ci maddəsinin II hissəsinə uyğun olaraq, hakim cinayət məsuliyyətinə yalnız qanunda nəzərdə tutulan qaydada cəlb oluna bilər.

Cinayət-Prosessual Məcəlləsinin 11.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının hakimləri barəsində cinayət təqibinin xüsusiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 101-ci maddəsinə görə, cinayət başında yaxalanması halları istisna olunmaqla, hakim tutula və ya həbs edilə, şəxsi axtarış və müayinəyə məruz qala, Məhkəmə-Hüquq Şurasının razılığı olmadan barəsində cinayət təqibi həyata keçirilə bilməz. Hakimi cinayət başında tutmuş cinayət təqibi orqanı bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna məlumat verir. Azərbaycan Respublikasının Baş prokuroru hakim barəsində cinayət təqibinin həyata keçirilməsi üçün əsaslar müəyyən etdikdə dərhal Məhkəmə-Hüquq Şurasına bu barədə təqdimat verir. Məhkəmə-Hüquq Şurası hakimin tutulduğu andan 24 saat müddətində onun barəsində cinayət təqibinin həyata keçirilməsinə dair təqdimata Azərbaycan Respublikası Baş prokurorunun və ya onun müavininin iştirakı ilə baxır, həmin təqdimatın təmin və ya rədd edilməsi haqqında qərar qəbul edir. Bu qərar dərhal Azərbaycan Respublikasının Baş prokuroruna təqdim edilir. Məhkəmə-Hüquq Şurasının razılığı olduqda cinayət başında tutulmuş hakim barəsində cinayət təqibi Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq davam etdirilir. Belə razılıq olmadıqda cinayət başında tutulmuş hakim dərhal azad edilir. Digər hallarda hakim haqqında cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına daxil olduğu gündən 72 saat müddətində baxılır. Məhkəmə-Hüquq Şurasının razılığı olduqda hakim barəsində cinayət təqibi Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Konstitusiya Məhkəməsinin hakiminin cinayət məsuliyyətinə cəlb edilməsinin mümkünlüyü ilə bağlı isə qanunverici tərəfindən daha mürəkkəb, ikipilləli prosedur nəzərdə tutulmuşdur. Belə ki, "Konstitusiya Məhkəməsi haqqında" Qanuna görə, Konstitusiya Məhkəməsinin hakimi cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula və ya həbs edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa və gətirilməyə məruz qala bilməz, şəxsi müayinə edilə

bilməz. Konstitusiya Məhkəməsi hakiminin cinayət başında yaxalanması halları istisna olunmaqla, cinayət və ya inzibati xəta törətməkdə şübhə edilən şəxs qismində tutulmuş Konstitusiya Məhkəməsinin hakimi şəxsiyyəti müəyyənləşdirildikdən sonra dərhal azad edilməli və bu barədə Konstitusiya Məhkəməsinə, habelə Azərbaycan Respublikasının Baş prokuroruna yazılı məlumat verilməlidir. Konstitusiya Məhkəməsi hakiminin hərəkətlərində cinayət əməlinin əlamətləri olduqda, o, Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin IV və V hissələrində nəzərdə tutulmuş qaydada vəzifədən kənarlaşdırıla bilər. Konstitusiya Məhkəməsinin hakimi vəzifədən kənarlaşdırıldıqdan sonra Konstitusiya Məhkəməsinin razılığı olduqda, Azərbaycan Respublikası Baş prokurorunun qərarına əsasən Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb oluna və həbs edilə bilər (16.2-16.4 və 16.7-ci maddələr).

Cinayət-Prosessual Məcəlləsinin 53.1.5-ci maddəsinə müvafiq olaraq, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində təqib olunan şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi məsələsi qanunla müəyyən olunmuş qaydada qoyulduqda cinayət təqibi üzrə icraat dayandırılır. Həmin Məcəllənin 53.3.4-cü maddəsinə görə, cinayət təqibi üzrə icraatın dayandırılması üçün şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı olmalıdır. İcraatın dayandırılmasına əsas verən səbəblər aradan qalxanadək cinayət təqibi üzrə icraat dayandırılmış qalır. Bu səbəblər aradan qalxdıqdan sonra prokurorun, müstəntiqin və ya məhkəmənin qərarı ilə cinayət təqibi üzrə icraat təzələnir (Cinayət-Prosessual Məcəlləsinin 53.6-cı maddəsi).

Sorğuda müvafiq razılığın alınmadığı təqdirdə cinayət təqibi üzrə icraatın dayandırılmış qalması və yalnız hakimin səlahiyyət müddəti bitdikdən sonra davam etdirilməsi ilə bağlı qaldırılan məsələ ilə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə, Baş prokurorun hakimin toxunulmazlıq hüququndan məhrum edilməsinə dair təqdimatına baxılması üzrə Məhkəmə-Hüquq Şurasının qəbul etdiyi qərarın və Konstitusiya Məhkəməsinin hakiminin cinayət məsuliyyətinə cəlb edilməsinə razılığın verilməsinə dair Konstitusiya Məhkəməsinin Qərarının hüquqi təbiətinə nəzər salmağı vacib hesab edir.

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Məhkəmə-Hüquq Şurası haqqında" Qanun) 1-ci maddəsinə əsasən, Məhkəmə-Hüquq Şurası Azərbaycan Respublikasında məhkəmə sisteminin təşkilinin, hakimlərin və məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi... və hakimlərlə bağlı digər məsələləri səlahiyyəti daxilində həll edən, məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqandır.

Həmin Qanunun 11.0.12-ci maddəsinə müvafiq olaraq, Məhkəmə-Hüquq Şurası hakimlərin səlahiyyətlərinə xitam verilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi barədə müraciətlərə baxır. "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunun 12.0.9-cu maddəsinə əsasən, hakimlər barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq vermək Məhkəmə-Hüquq Şurasının hüququdur. Hakim barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatının təmin və ya rədd edilməsi haqqında qərar qəbul edilərkən səsvermədə Məhkəmə-Hüquq Şurasının yalnız hakim üzvləri iştirak edirlər. Məhkəmə-Hüquq Şurasının bu məsələ üzrə qəbul edilən qərarı qətidir (17.4-cü maddə).

"Məhkəmə-Hüquq Şurası haqqında" Qanunun 18.1-ci maddəsinə uyğun olaraq, həmin Qanunun 17.4-cü maddəsində nəzərdə tutulmuş (hakim barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatının təmin edilməsi və ya rədd edilməsi haqqında) qərardan şikayət verilə bilməz.

Konstitusiyanın 130-cu maddəsinin IX hissəsinə görə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinə aid edilən məsələlərə dair qərarlar qəbul edir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası

ərazisində məcburi qüvvəyə malikdir.

Qanunvericilik normalarının əlaqəli təhlili belə nəticəyə gəlməyə əsas verir ki, hakim barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq verilib-verilməməsinə dair qərarın düzgün olması prezumpsiyası mövcuddur.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Konstitusiya Məhkəməsinin və ya Məhkəmə-Hüquq Şurasının hakim barəsində cinayət təqibinin həyata keçirilməsi məqsədi ilə toxunulmazlıq hüququndan məhrum edilməsinə dair Baş prokurorun təqdimatının rədd edilməsi üzrə qərarı, həmin hakimin cinayət məsuliyyətinə cəlb edilməsini birdəfəlik istisna edən akt xarakterini daşıyır və onun cinayət məsuliyyətinə cəlb edilməsini səlahiyyətlərinə xitam verilənə qədər təxirə salan akt kimi qiymətləndirilə bilməz.

Əks halda, hakim barəsində cinayət təqibinin həyata keçirilməsinin mümkünlüyünü Məhkəmə-Hüquq Şurasının və ya Konstitusiya Məhkəməsinin razılıq qərarından asılı edən qayda onların toxunulmazlığının prosessual hüquqi təminatı və müstəqilliyini təmin edən səmərəli vasitə kimi öz əhəmiyyətini itirmiş olar.

Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etməyi vacib hesab edir ki, hakimin toxunulmazlığının götürülməsi məsələsi həll olunarkən, hakimlərin müstəqilliyinin təmin edilməsi və cəzanın qaçılmazlığı prinsipləri arasında tarazlığın təmin edilməsi bu barədə qərar qəbul edəcək orqanların vəzifəsini təşkil edir.

Burada xüsusilə vurğulanmalıdır ki, həm Məhkəmə-Hüquq Şurası, həm də Konstitusiya Məhkəməsi cinayət təqibi ilə hakimin fəaliyyəti arasında əlaqənin olub-olmaması, həmin cinayət təqibinin hakimin fəaliyyətinə təsir etmə vasitəsi kimi çıxış edib-etməməsini qiymətləndirməklə cinayət təqibinin həyata keçirilməsinin mümkünlüyü üzrə yekun nəticəyə gəlməlidir.

Qeyd edildiyi kimi, Cinayət-Prosessual Məcəlləsinin 53.6-cı maddəsinə əsasən, icraatın dayandırılmasına əsas verən səbəblər aradan qalxanadək cinayət təqibi üzrə icraat dayandırılmış qalır. Lakin burada nəzərə almaq lazımdır ki, Məhkəmə-Hüquq Şurasının və ya Konstitusiya Məhkəməsinin cinayət təqibinin həyata keçirilməsinə razılığın verilməməsi barədə qərarı qəti hüquqi nəticələr yaratmaqla cinayət təqibinin həyata keçirilməsini istisna edir. O da qeyd olunmalıdır ki, hakimin toxunulmazlığının götürülməsi barədə təqdimatın verilməsi səbəbindən dayandırılmış icraat yalnız cinayət təqibinə xitam verilməsi məqsədi ilə təzələnə bilər.

Bununla belə, qüvvədə olan cinayət-prosessual qanunvericiliyində müvafiq orqan tərəfindən hakim barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməməsi barədə qərarın qəbul edilməsi cinayət təqibini istisna edən hallar sırasında göstərilməmişdir. Odur ki, Konstitusiya Məhkəməsinin Plenumu cinayət-prosessual qanunvericiliyinə müvafiq əlavələrin edilməsinin Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmasını məqsədəmüvafiq hesab edir.

Eyni zamanda, Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etməyi vacib hesab edir ki, hakimlik dövründə törədilən, lakin onun səlahiyyətlərinə xitam verildikdən sonra aşkar edilən cinayət əməlinə görə sabiq hakim barəsində cinayət təqibinin həyata keçirilməsi məsələsi yarandığı hallarda (funksional toxunulmazlıq ilə bağlı hallar istisna olmaqla), onun barəsində cinayət təqibi ümumi əsaslarla cinayət-prosessual qanunvericiliyinə əsasən həyata keçirilir və bu zaman Məhkəmə-Hüquq Şurasının və ya Konstitusiya Məhkəməsinin razılığı tələb olunmur. Belə ki, yuxarıda qeyd edildiyi kimi, hakimin toxunulmazlığının, o cümlədən prosessual toxunulmazlığının məqsədi hakimin fəaliyyətinin kənar təzyiq və təsirlərdən müdafiə edilməsi, bununla da müstəqilliyinin təmin edilməsidir. Səlahiyyət müddəti bitmiş hakimin isə artıq belə təzyiq və təsirlərdən müdafiəyə ehtiyacı olmur.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Konstitusiyanın 128-ci maddəsinin II hissəsinin mənasına görə, Məhkəmə-Hüquq Şurasının və ya Konstitusiya Məhkəməsinin cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməməsinə (təqdimatın rədd edilməsinə) dair qərarı hakim barəsində cinayət təqibinin həyata keçirilməsini istisna edir;

- bu Qərarın təsviri-əsaslan-

dırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınaraq, Məhkəmə-Hüquq Şurasının və ya Konstitusiya Məhkəməsinin hakim barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməməsinə (təqdimatın rədd edilməsinə) dair qərarı əsasında Cinayət-Prosessual Məcəlləsinin 53.1.5 və 53.3-cü maddələri ilə nəzərdə tutulmuş qaydada dayandırılmış cinayət təqibi üzrə icraata xitam verilməsinin tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmalıdır;

- Cinayət Məcəlləsinin 295-ci maddəsi ilə nəzərdə tutulmuş bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarma halları istisna olmaqla, hakim həm səlahiyyəti dövründə, həm də səlahiyyətinə xitam verildikdən sonra fəaliyyətinə, qəbul etdiyi qərarlarda ifadə etdiyi mövqelərə, səsverməyə, söylədiyi fikrə görə hüquqi məsuliyyətə cəlb oluna, ondan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz;

- hakimin səlahiyyətlərinə xitam verildikdən sonra aşkar edilən, lakin onun səlahiyyəti dövründə törədilən cinayət əməlinə görə (funksional toxunulmazlıq ilə bağlı hallar istisna olmaqla) sabiq hakim barəsində cinayət təqibi ümumi əsaslarla cinayət-prosessual qanunvericiliyinə əsasən həyata keçirilir və bu zaman Məhkəmə-Hüquq Şurasının və ya Konstitusiya Məhkəməsinin razılığı tələb olunmur.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin II hissəsinin mənasına görə, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməməsinə (təqdimatın rədd edilməsinə) dair qərarı hakim barəsində cinayət təqibinin həyata keçirilməsini istisna edir.

2. Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınaraq, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakim barəsində cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməməsinə (təqdimatın rədd edilməsinə) dair qərarı əsasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 53.1.5 və 53.3-cü maddələri ilə nəzərdə tutulmuş qaydada dayandırılmış cinayət təqibi üzrə icraata xitam verilməsinin tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 295-ci maddəsi ilə nəzərdə tutulmuş bilə-bilə ədalətsiz hökm, qətnamə, qərardad və qərar çıxarma halları istisna olmaqla, hakim həm səlahiyyəti dövründə, həm də səlahiyyətinə xitam verildikdən sonra fəaliyyətinə, qəbul etdiyi qərarlarda ifadə etdiyi mövqelərə, səsverməyə, söylədiyi fikrə görə hüquqi məsuliyyətə cəlb oluna, ondan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

4. Hakimin səlahiyyətlərinə xitam verildikdən sonra aşkar edilən, lakin onun səlahiyyəti dövründə törədilən cinayət əməlinə görə (funksional toxunulmazlıq ilə bağlı hallar istisna olmaqla) sabiq hakim barəsində cinayət təqibi ümumi əsaslarla Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə əsasən həyata keçirilir və bu zaman Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin razılığı tələb olunmur.

5. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

6. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

7. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 17 yanvar 2022-ci il*

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**


Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Çağrı Mərkəzi: 881
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 30 Tiraj:1000 ədəd